# Qarayeva Ruqiyya



**Vətən mənim bu günüm**
**Sabahkı toy- düyünüm.**
**Haqqım var ki, öyünüm**
**Azərbaycan deyəndə.**
**Ürəklərdə döyünüm,**
**Azərbaycan deyəndə.**
***(Tofiq Bayram)***

Vətən - insanın anadan olduğu, dədə-babaların, qohum-əqrəbaların-ın yaşadığı, soykökü ilə bağlı olduğu ölkə və fərdi inkişaf zamanı bu ölkə ilə əlaqəli olaraq əldə edilən emosional hissdir. Vətənə bağlılıq insanlarda vətənpərvərliklə səciyyələndirilir.

Vətən sadəcə müəyyən sərhədləri olan coğrafi bir məkan deyildir. Vətən xüsusi sevgi və hörmətə layiq müqəddəs torpaqdır. Hər kəsə öz vətəni əziz, doğmadır. Atalar sözümüzdən birini də buna misal göstərmək olar:"Gəzməyə qərib ölkə ölməyə vətən yaxşıdır" kimi deyimi illərdir qulaq müsafiri olduğumuz məşhur ifadələrdən biridir. Dədə- babalarımızın qoruyub saxlayıb bizə miras qoyduğu bu müqəddəs torpağa sahib çıxıb, onu sevib qorumalıyıq. Bu qorumaq əldə silah gedib vətən keşiyində durmaqla yanaşı, həm də təhsil-elm arxasınca gedib təhsillənib yüksək elm qazanmaqla da hesablanır. Vətən uğrunda ölənindən, canından keçənlərə ibrət olduğu qədər onu inkişaf etdirib yüksək iqtisadi və siyasi mərhələyə çatdıranlara da ibrət olmalı və hər zaman vətəninə sahib çıxmağı bacarmalıdırlar. Təkcə oxumaqla kifayətlənməməli, oxuduğunu tətbiq etməyə bacarmalı və vətəni üçün, gənc nəsil üçün öz töhfə və xidmətlərini yerinə yetirməlidir. Onlara isə ən yaxşı dəstək elə məktəb vaxtlarında olan istedad və qabiliyyətini üzə çıxarıb işıqlandırmaq və tanıtmaqdır. Vətən uğrunda canından keçməyə hazır olan və Qarabağ döyüşlərində qəhrəmancasına döyüşən bir vətən oğlunun qız övladından bəhs edəcəyik bu yazıda. Atası Qarabağ əlili olan Ruqiyyə Qarayevadan.

Qarayeva Ruqiyyə Hüseyn qızı 2009-cu ilin 8 yanvarında Bakı şəhəri Xəzər rayonu Mərdəkan qəsəbəsində dünyaya göz açmışdır. O, 2015 ci ildə Ağdam rayonu 39 nömrəli məktəbin 1-ci sinfinə getmişdir. Hal hazırda Ruqiyyə qızımız 4-cü sinif şagirdidir. Dərslərində fəal olan və oxumağı cox sevən bu bacaqrıqlı şagirdin gələcəkdə ən böyük arzusu həkim yaxud müəllim olmaqdır. Çünki ikisi də şərəfli olan bu peşələr onun diqqətini cəlb etmiş, ancaq hələlik ikisi arasında seçim edə bilməmişdir. Bu balaca balamızın istedadlı və maraqlı əl qabilliyəti ilə yanaşı, gözəl rəqs etmə bacarığı vardır. Sanki bütün istedadlı tərəflər və xüsusiyyətlər bu şagirdin əsas məziyətinə çevrilib. Onun gözəl əl işləri, maraqlı rəsm əsərləri vardır. O həmçinin rəqs etməyi də bacarır. Dərslərini də yaxşı oxuyan Ruqiyyənin ən sevimli fənni ingilis dilidir. Çünki indiki dövrdə beynəlxalq dil sayılan ingilis dili karyera həyatında, təhsil sahələrində əsas dil göstəricisi kimi tələb olunur. Həmçinin Xalidə müəllim, Səadət müəllim, Raisə müəllim, Azər müəllim, Dilarə müəllim Ruqiyyənin ən sevimli müəllimləridir. O, asudə vaxtlarını kitab oxumaq və rəqs etməklə keçirir. Daim onun fərdi inkişafına çalışan Ruqiyyənin ailəsi 4 nəfərdən ibarətdir.

Atası Qarayev Hüseyn Eyvaz oğlu 2-ci qrup Qarabağ əlilidir və ustadır. O vətənə olan sevgisi, saydığı sayəsində onun cəfasını çəkib, sağlamlığından məhrum olub. İndi isə öz halal əl zəhməti ilə ailəsini, övladlarını saxlayır.

Anası Qarayeva Rəvanə Həsən qızı evdar xanımdır. Ana gündəlik övladların qayğısı və dərsləri ilə məşğul olur.

Qardaşı Qarayev Eyvaz Hüseyn oğlu 3-cü sinifdə oxuyur.

Elm yolu daşlı-kəsəkli olduğu qədər haqq yolu, düzgün yoldur. Odur ki, jurnal heyyəti adından ona sağlam ruh, güclü zehin açıqlığı və parlaq gələcək arzulayıram. Ruqiyyəni jurnalımız adından bir daha təbrik edir, ona həyatda və təhsilində uğurlar diləyirik.



# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

## DÖVLƏT BAYRAĞI



Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraq qadağan edilmiş və sovet bayrağı ilə əvəz olunmuşdur.

Sonralar Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri olan üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.



## DÖVLƏT GERBİ

Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində həmin gerb qəbul edilməmişdir. Sonralar - 1990-cı ildə Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırılmışdır. Müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunmuşdur. 1991-1992-ci illərdə müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim olunmuşdur. Müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Dövlət gerbi haqqında Əsasnamə və ona əlavə edilmiş təsvir 1993-cü il aprelin 5-də təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində isə alov təsviri vardır.

Gerbin rəngli təsvirindən ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları habelə qalxanın düymələri və palıd qozaları qızılı rəngdədir.

## DÖVLƏT HİMNİ

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin Milli Himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın Milli Himnini qəbul etməyə imkan vermədi. Azərbaycan Respublikasının ilk Dövlət Himni 1945-ci ildə Azərbaycan SSR Sovet İttifaqının tərkibində olarkən qəbul edilmişdir (sözləri S. Vurğun və S. Rüstəmin, musiqisi Ü. Hacıbəyovun) 1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş təntənəli "Azərbaycan marşı" Azərbaycanın Dövlət Himni kimi təsdiq edildi.

Musiqisi: **Üzeyir Hacıbəyovun,**
Sözləri: **Əhməd Cavadındır.**

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**
**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər!**
**Hərə bir qəhrəman oldu!**
**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**
**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə,**
**Cümlə - gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**

# Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı artıq bunlar fikri istedada malik olan nadir adamlardır

*Heydər Əlirza oğlu Əliyev*



**Zərifə Əziz qızı Əliyeva**
Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki



**Heydər Əlirza oğlu Əliyev**
Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti "Ulu öndər" və "Azərbaycan xalqının ümummilli lideri" titullarının rəsmi daşıyıcısı.

***Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir.***

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva da belə seçilmiş insanlardan olmuşdur. O, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda - atasının məzarə yanında dəfn olunmuşdur. Bütün ömrünü insanlara xidmət işinə sərf etmiş bir insanın bu gün aramızda olmamasına inanmaq çox çətindir. Fəqət, görkəmli alimin, xeyirxah insanın, qayğıkeş ananın adının qədirbilən xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəlliverici məqamdır.

***Azərbaycan xalqının şanlı oğlu, qüdrətli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin 2016-cı il mayın 10-da anadan olmasının 94-cü ildönümü tamam olur.***

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991 - 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyası böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir. Heydər Əliyev 1993-cü il 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.



# İBRAHİM ƏSGƏROV







**"Savadlı adam mütaliə etmirsə təkrar savadsızlığa məhkumdur.**
**İnsan gərək bütün ömrü boyu maariflənsin"**

**(A.V Lunaçevski)**

Demək olar ki, bəşər həyatı yaranandan insanlar hər bir böyük işi kəşf edərək nəticə olaraq əldə edə biliblər. Zəmanəmizə kimi gəlib çatan hər bir bilik və bacarıq insanların tarixlər boyu axrarışları, kəşfləri ilə əldə etdiklərinin nəticəsidir. Kitabsız, elmsiz qalmaq ac qalmaqdan daha pisdir.Əks halda biri insan həyatını, digəri cəmiyyəti süquta aparır.

Qədimə nəzər salsaq, indiki insanlar daha ağıllı hesab olunur. Müasir insan oxumağı-yazmağı bilir, etdikləri kəşflər isə elmə söykənir. Bəzən isə insan heç bir savad almadan belə öz bacarığı sayəsində cəmiyyətə böyük fayda verə bilir. Kimisi yaxşı bənna, kimisi yaxşı sürücü, kimisi dərzi, kimisi idmançı, kimisi mühəndis, kimisi müəllim və s. Amma yenə də hər bir peşənin öz elmi var. Müəllimlik isə bunların təməlində dayanan müqəddəs bir peşədir. Elə müsahibimiz də gələcək də hansısa bir peşəni elmin, biliyin sayəsində etməyə çalışır. Böyüyəndə idmanla aktiv məşğul olmaq istəyən Əsgərov İbrahim Ruhit oğludur.

İbrahim Ruhit oğlu Əsgərov 23 iyul 2009-cu ildə Bakı şəhərində anadan olub. 2015-ci ildə məktəbə yollanan İbrahim hazırda Səbail rayonu, 20-ci sahə qəsəbəsində yerləşən 51 saylı tam orta məktəbin 4-cü sinif şagirdidir. İbrahim də çox çalışqan şagirtdir. İlk dəfə İbrahimə qələm tutmağı, elm öyrənməyi Bağırova Məlahət müəllim öyrədib. Elə indi də Məlahət müəllimin dərs dediyi sinifdə oxuyur. Hər dəfə müəlliminin şagirdlərinə göstərdiyi qayğı, diqqət İbrahimin məktəbə, dərsə həvəsini daha da artırır. Hər gün müəllimindən əla qiymətlər almağa çalışan İbrahim sinifin ən sevimli şagirdinə çevrilib. Azərbaycan dili, riyaziyyat və həyat bilgisi fənlərinə marağı var. İbrahim çalışır ki, gələcəkdə ali təhsil alsın. Ona görə də daim oxumağa, yazmağa can atır.

İbrahimin ən böyük həvəsi idmançı, daha doğrusu futbolçu olmaqdı. Hələ heç bir idman növü ilə məşğul olmasa da qəlbindəki futbol sevgisi onu gələçəkdə ən məhşur idmançılardan olacağına əmin edir. Hər dəfə valideynləri onu idmana aparmaqlarını xahiş edir. Çünki, İbrahim idmanla bağlı xəyallarını hələ lap uşaqkən arzu edib. Valideynləri bu yaxınlarda İbrahimi futbola qoyacaqlarına söz veriblər. Bu da onun üçün bir sevinc sitimuludur. İbrahim həm də ağıllı, tərbiyəli bir oğlandı. O, heç vaxt valideynlərinin və müəllimlərinin sözündən çıxmır. Dostları ilə də mehribandır. Hər kəsə qarşı çox mərhəmətlidir.

Ailədə 5 nəfərdilər. Atası Əsgərov Ruhit, Bulvar idarəsində işləyir. Anası Höccətova Aidə evdar xanımdır. Bacısı Əsgərova Aytən, qardaşı Əsgərov Şahin.

Biz də kollektiv olaraq jurnalımız adından gələcəyin futbolçusuna uğurlar arzulayır, gələcək həyatında arzularının çin olmasını diləyirik. Amma unutmasın ki, idmana gedən yol da elmdən keçsə daha uğurlu ola bilər.

# İbrahimzadə Naila



**Bir elm öyrənmək istədikdə sən**
**Çalış ki, hər şeyi kamil biləsən**
**Kamil bir palançı olsada insan**
**Yaxşıdır yarımçıq papaqçılıqdan.**
**(Nizami Gəncəvi)**

Nizaminin dediyi kimi bir elmi öyrənmək istədikdə yaxşı dərindən öyrənməlisən. Elm təkcə müşahidə edilən təbiət və ictimai halları təsvir etmir, həm də onların əlaqələrini tapır və nəticəni müəyyən edə bilir. İnsan biliklərin müəyyən bir sahəsidir.Məsələn, elmlə məşğul olmaq, həyatını elmə sərf etmək,oxumaqla əldə edilən bilik, məlumatdır. Biz də, gələcək nəsil də sabahımızı, gələcəyimizi elmə həsr etməli, daha çox bilik əldə etməli və yüksəlməliyik. Əks halda bu mümkün deyil, çünki əsr elm-texnolgiya əsri, dövr daim elmi kəşflərin yeniləndiyi bir dönəmdir. Və bunlardan geri qalan insan həyatını öncül yerlərdə, yaxşı statuslarda və yüksək mövqelərdə görə bilməz. Gələcək planlarını təhsil-elm almaq üzərindən planlaşdıran Nailə İbrahimzadə də jurnalımızın seçilən qəhrəmanlarından olmaqla yanaşı gələcəkdə müəllim olmaq və bu müqəddəs peşə ilə cəmiyyətə öz faydasını vermək arzusundadır.

İbrahimzadə Nailə Ramil qızı 2009-cu ilin noyabrın 3-də Bakı şəhəri Suraxanı rayonu Qaraçuxur qəsəbəsində anadan olmuşdur. O, ilk orta təhsilinə 2015-ci ildə Ağdam rayonunun 42 saylı tam orta məktəbinin 1-ci sinfinə getməklə başlamışdır. Hal hazırda o, həmin məktəbin 4-cü sinif şagirdidir. Nailə balamız savadı, biliyi ilə siniflərinin ən yaxşı oxuyan şagirdlərindən biridir. O, yalnız yaxşı oxumağı ilə deyil, öz nümunəvi tərbiyəsi və davranışı ilə yoldaşlarına nümunədir. Nailə illərdir sinif əlaçısıdır. Riyaziyyat, ana-dili, həyat bilgisi fənlərinə marağı daha çoxdur. O fənləri xüsusi maraqla oxuyub, öyrənir. Gülnar və Könül adlı müəllimləri isə sevimli müəllimləri sırasındadır. Amma Gülnar ona dərs deyən bütün müəllimlərinə hörmət edib, təşəkkürünü bildirir. Çünki hər birinin onun bilgisinə qatqısı və töhfəsi var.Bu kiçik qızmız gələcəkdə müəllim olmaq arzusundadır. Onun üçün bu sənətdən müqəddəsi və şərəflisi yoxdur. Dərsdən boş qalan vaxtlarını da Nailə yaxşı dəyərləndirib kitab oxumaq, rəsm çəkmək və musiqi dinləməklə keçirir.

Ona hər zaman dəstək olan Nailənin ailəsi isə 4 nəfərdən ibarətdir. Atası İbrahimov Ramil Rəhim oğlu təsərrüfat işçisidir. O qızını çox sevir və ona uğrular diləyir. Anası İbrahimova Məhsəti satıcı işləyir. Ana da bir məsuliyyətli valideyn kimi qızına ən xoş diləklərini bildirir və xoşbəxt gələcək arzulayır. Qardaşı İbrahimzadə Yusif 1-ci sinifdə oxuyur. O da bacısından bilmədiklərini öyrənir və onunla birgə özünü xoşbəxt qardaş sayır.

Biz də redaksiyamızın rəhbərliyi və işçi heyəti adından Nailəni təbrik edir, ona həyatda müvəfəqiyyətlər arzu edirik. Uğurların bol, ömür yolu zəngin olsun.



# Nuruyeva Firəngiz



**Ey hörmətli müəllim**
**Hər könüldə yerin var.**
**Hər kənddə, hər şəhərdə**
**Sənin meyvələrin var.**

Firəngiz müəllimənin uzun illər çəkən elm yolu öz şagirdlərinin və onların valideynlərinin gözündə çox böyük dəyərə sahibdir. Bunu onların hər bir sözündən, rəğbətindən hiss etmək olar. Firəngiz müəllimə 1965-ci ildə Qazax rayonunun Yuxarı Əski para kəndində dünyaya göz açıb. Süleyman Rüstəm demişkən, “Müəllimin də müəllimi olubdur əlbət”. Firəngiz müəllimə də 1972 -ci ildə Aşağı əski para kəndində 1-ci sinifə gedib və müəllimlərindən hər bilgini ilmək -ilmək toxumaqla öyrənib. 1982-ci ildə məktəbi bitirdikdən sonra Bakı Məktəbəqədər Pedoqoji məktəbə daxil olub. Tələbəlik illərində şagirdlərinə öyrədəcəyi hər elmin axırına çıxağa çalışıb. 2005-ci ildə isə artıq savadı və bacarığı ilə seçilən Firəngiz müəllimə 306 saylı məktəbdə Uşaq birliyinin rəhbəri vəzifəsində çalışıb. 2006-2007 ci illərdə ixtisas dəyişmə İnstitutunu bitirərək ibtidai sinif ixtisasına yiyələnmişdir. Və bununla da şərəfli müəllimlik həyatına qədəm qoymuşdur. Hal-hazırda 306 saylı məktəbin ibtidai sinif müəllimi işləyir. Yüzlərlə şagird yetişdirən, ən önəmli təməl bilikləri öyrədən Firəngiz müəlliməni həm şagirdləri həm də valideynlər çox sevir. Valideynlərdən bəziləri ilə söhbət edərkən Firəngiz müəllimə haqqında çox yüksək və dəyərli fikirlərə sahib olduqlarını gördük. Onların sözlərinə görə, Firəngiz müəllimə şagirdləri arasında heç bir fərq qoymadan, səbr və təmkinlə onları başa salır. Dərslərdə mütəmadi iştirak edən valideynlər bildirdilər ki, hər zaman dərsdən xoş təəssüratlarla ayrılıblar. Mehribanlığı, gülərüzlülüyü və savadı ilə şagirdlərin və valideynlərinin qəlbində taxt qurub Firəngiz müəllimə.

# İqbal Hüseyinov



**Dünyada nə qədər kitab var belə**
**Çalışıb əlləşib gətirdim ələ**
**Oxudum, oxudum, sonra da vardım**
**Hər gizli xəznədən bir dürr çıxardım.**
**(Nizami Gəncəvi)**

İqbal həyatında bu sözləri özünə şüar seçərək ömür yollarında irəli addımlamağa başlayıb. Həm elm həm idmanda olan uğurları bunu göstərir ki, daima öz üzərində çalışıb, irəli getməyə can atan gənclərimizdən biridir. İqbal Hüseyinov 18 oktyabr 2001-ci ildə Sumqayıtda anadan olub. Sanki doğulanda alnına yazılmışdı onun kiçik yaşlarından olacaq uğurları. 2007 -ci ildə Masazırda Laçın rayonu 15 saylı tam orta məktəbin birinci sinifinə başlayıb. Məktəbi əla oxumaqla yanaşı uşaqlıqdan idmana olan həvəsi ilə seçilib. İqbal uşaq yaşlarından başlayaraq güləş və qaydasız döyüş idman növləri ilə məşğul olurdu. Qaydasız döyüş üzrə 2 dəfə Azərbaycan çempionu olub, dəfələrlə müxtəlif turnirlərdə iştirak etməklə fərdi qalibiyyətlər və mükafatlar qazanıb. İqbal həmçinin güləş üzrə də Azərbaycan çempionatında iştirak edib, 2-ci və 3- cu yerlərdə qərarlaşıb. Bu az yaşına rəğmən əldə etdiyi uğurlar onun gələcəkdə də necə bir şəxsiyyət kimi formalaşacağının əlamətləridir.

2013 -cü ildə müəyyən səbələrdən Kəlbəcər rayon 126 saylı tam orta məktəbin 6-cı sinifinə başlayır. 2018 ci ildə isə ele həmin məktəbin 11-ci sinifini bitirir. DİM-in təşkil etdiyi imtahanlar da da müvəffəqiyyətlə nəticə göstərib, ali məktəbə qəbul olur. İqbal Azərbaycanın ən prestijli universitetlərindən biri olan Azərbaycan Dövlət İqtisad Univeristetinin Dünya iqtisadiyyatı fakultəsinə daxil olub. Hal- hazırda tələbəliyin dadını çıxarmaqla yanaşı, daima öz üzərində çalışır və daha çox nailiyyətlər əldə etmək istəyir. Atası Qaçay bəy və anası Əfsanə xanımın ən böyük arzularından biri övladlarının hər bir uğuruna ürəklə sevinmək və onun arxasında dayanmaqdır. Uşaqlığından bəri qoçaqlığı, əzmi və iradəsi ilə seçilən İqbal gələcəkdə də hər zaman inkişaf edəcəyini deyir.

Onun yaxınları, qohumları, ailəsi, bir sözlə onu tanıyan hər kəs düşünür ki, "İqbal çalışqanlığı, istedadı və zəkasının gücü və səyləri nəticəsində qazandığı uğurların davamı olaraq, gələcəkdə də Azərbaycanın ən hörmətli ziyalılarından biri olacaq. " Biz də ümid edir və arzulayırıq ki, İqbal Azərbaycanın adını layiqincə yüksəklərdə ucaldacaq ən fəal gənclərindən olsun.



# İbişzada Nərgiz






**Qüvvət elmdədir, başqa cür heç kəs,**
**Heç kəsə üstünlük eyləyə bilməz.**
**Hər uca rütbədən biliniz, fəqət,**
**Alimin rütbəsi ucadır əlbət.**
***(Nizami Gəncəvi)***

Təhsil və bilik insan həyatında aparıcı rol oynayır. Belə ki, bilik insanın güclü, qüdrətli, müdrik bir şəxsiyyət kimi yetişməsində bir vasitədir. Elm, təhsil eyni zamanda dünya və aləmi, onun əsrarəngiz çalarlarını dərk edib duymaq üçün bir vasitədir. Belə ki, bizi əhatə edən aləm elmin, təhsilin və müasir texnikanın uğurlu nailiyyətlərinə əsaslanır. Elmin inkişafı bəşəriyyətin inkişafına təkmilləşməsinə xidmət edir. Bu gün elmi öyrənməyə çalışan istedadlı və bacarıqlı gənclərimiz var. Bu istedadlı qabiliyyətli və savadlı şagirdlərimizdən biri də Nərgiz balamızdır. O jurnalımızın növbəti yazısının qəhrəmanı olmaqla seçilən və nümunəvi şagirdlərdən biri olduğunu təsdiqləyir.

İbişzadə Nərgiz Arif qızı 2006-cı ilin 11 iyununda Sabirabad rayonunun Nizami kəndində dünyaya göz açıb. O, 2012-ci ilin tədris ilindən etibarən M.Məmmədov adına tam orta məktəbin 1-ci sinfinə getməklə təhsil həyatına başlayıb. Hal-hazırda həmin məktəbin 7-ci sinif şagirdidir. Nərgiz balamız dərslərini əla oxuyaraq məktəbin seçilən şagirdlərindən biri olaraq tanınır. O, 6-cı sinifdə əlaçı olduğuna görə məktəb rəhbərliyi tərəfindən təşəkkürnamə ilə təltif edilib, nümunəvi şagird olduğu qiymətləndirilib. O, həmçinin Azərbaycan dilindən yarışlarda birincilik qazanaraq məktəbin adını yüksəltmişdir. Nərgiz qızımızın Azərbaycan dili, ədəbiyyat, fizika və kimya fənlərinə marağı daha çoxdur. Yəni təbiət və dəqiq elmlərinə xüsusi rəğbəti var. Aysel, Fidan, Leyla, Yeganə və Teymur adlı müəllimləri isə onun üçün dəyərlidir. Nərgizin gələcəkdə ən böyük arzusu savadlı müəllim olmaq və çoxlu savadlı, təhsilli şagirdlər yetişdirməkdir. Boş vaxtlarını əsasən kitab oxumaq, test işləmək və bədii filmlərə baxmaqla keçirir. İdman etmək, musiqi dinləmək də onu rahatlaşdıran məşğuliyyətlərdəndir. Onun ailəsi də Nərgizi daim dəstəkləyir və onun uğurları, savadlı şagird olmaları ilə qürur duyurlar. Valideynlərinin ən böyük arzuları onun parlaq gələcəyə sahib olması və cəmiyyətdə öz layiqli mövqeyini tutmasıdır.

Nərgizin ailəsi 5 nəfərdən ibarətdir. Atası 1973-cü il təvəllüdlü İbişov Arif Siyabxan oğlu ustadır. Anası 1984-cü il təvəllüdlü İbişova Əsməd Ərşəd qızı evdar xanımdır. Qardaşı İbişzadə Cahid 1- ci sinif şagirdi, bacısı İbişzadə Mələk isə 5 -ci sinif şagirdidir.

Redaksiya heyətimiz adından Nərgizi təbrik edirik.Ona gələcək həyatında və işlərində uğurlar arzulayırıq. Daim valideynlərinin fəxri olasan, uğurlarınla onları və müəllimlərini daim sevindirəsən.

# Əlizadə Fatimə





**Bir elm öyrənmək istədikdə sən**
**Çalış ki, hər şeyi kamil biləsən**
**Kamil bir palançı olsa da insan**
**Yaxşıdır yarımçıq papaqçılıqdan.**

***(Nizami Gəncəvi)***

Elm həqiqəti öyrənir, həyatın qanunauyğunluqlarını, təbiətin sirlərini bir-birinin ardınca kəşf edir. İnsan yalnız elmi, təhsili, hərtərəfli dünyagörüşü ilə başqalarından fərqlənə bilər. Hər birimiz hər an yeni bir bilgi əldə etməyə çalışmalı, təhsilimizi, biliyimizi artırmalıyıq. Çünki, bilik və təhsil almadan heç nə əldə edə bilmərik. Aqil, müdrik insanlar əsrlər boyu təhsilli, elmli insanlara yüksək qiymət vermiş, onlara hörmət və ehtiramla yanaşmışdır. Elmsiz, təhsilsiz bir insan yolunu azmış kor bir səyyaha bənzər ki, kiçik bir çuxur onu məhv edər. Elm və bilik insan həyatını mənalandıran, onu zənginləşdirən işıqlı bir yoldur. Odur ki, həyat və güzəranımızı daha mənalı etmək, səmərəli yaşamaq üçün daha çox təhsilə, savada yiyələnməliyik . Yetişən gəncliyə də bunu aşılamalıyıq. Bu məsələdə əsas məsuliyyət müəllimlərin, gəncliyin üzərinə düşür. Onlar peşəsini layiqli icra edib şagirdlərə yaxşı təhsil verməli və onları istedadı, marağı olan sahələrə yönəltməlidirlər. Gələcəyini, təhsilini ön qabağa çəkən savadlı övlad kimi yetişməyə çalışan şagirdlərimizdən biri də Fatimədir.

Əlizadə Fatimə Mircavid qızı 2011-ci ilin noyabrın 21-də Biləsuvar rayonunda anadan olmuşdur.O, 2017-cı ildə Eyvaz Kərimov adına Aman kənd tam orta məktəbinin 1-ci sinfinə getmişdir. Hal-hazırda həmin məktəbin 2-ci sinif şagirdidir.

Dərslərinə ciddi yanaşan və yaxşı oxuyub gələcəkdə həkim olmaq arzusundadır bu balaca qızımız. Bütün fənləri çox sevən Fatimənin ən sevimli müəllimi Həyat adlı müəllimidir. Boş vaxtlarında kitab oxuyur və şəkil çəkməyi çox sevir bu qızımız. Siniflərində aktiv və dərslərə olan məsuliyyətinə görə seçilir. O, siniflərinin əlaçısı olmaqla gələcəkdə həkim olmaq istəyir. Fatimə istəyir ki, peşəkar həkim olmaqla cəmiyyətə öz faydasını toxundursun.

Fatimənin ailəsi 5 nəfərdən ibarətdir. Atası Əliyev Mircavid Mirhəsənoğlu baytar həkimdir. Anası Allahverdiyeva Lətafət Allahverən qızı müəllimdir.Fatimə balamızın bir bacısı və bir qardaşı var.Bacısı Əlizadə Tahirə Mircavid qızı 4-cü sinif şagirdidir.Qardaşı Əlizadə Mirsaleh Mircavid oğlu az yaşlıdır.

Redaksiyamız heyəti adından Fatimə balamızı təbrik edir ona gələcək həyatında, dərslərində uğurlar arzu edirik. Arzu edirik ki, həyatı gözlədiyindən parlaq və böyük uğurlarla zəngin olsun.



# Leyla Şahin qızı Paşayeva



Bu gün təhsilə göstərilən qayğı məktəblərdə dərslərin keyfiyyətini daha da artırmışdır. Yüksək keyfiyyətli tədris onun sübutudur ki, ölkəmizin gələcəyi savadlı kadrların əlində olacaqdır.Bu da bir dövlət üçün, onun inkişafı üçün çox vacibdir.

Millət vəkili YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva bu məqsədlə bir çox yerlərdə, şəhər və rayonlarda orta məktəb binaları tikdirmiş və məktəblərdə əsaslı təmir işlərinin aparılmasına xüsusi göstəriş vermişdir.

Bakı şəhərində orta məktəblərdə təlimin keyfiyyətinin yüksəlməsi və yeni təhsil islahatlarının həyata keçirilməsi yolunda bir sıra mühüm addımlar atılmışdır.

Gələcəyimizin inkişafı üçün orta məktəb rəhbərləri də əllərindən gələni edir, rəhbərlik etdikləri tədris ocaqlarında xüsusi qayda-qanun yaradır, şagirdlərin yüksək elmə yiyələnməklərinə doğru yol göstərirlər. Leyla Şahin qızı Paşayeva da gələcəyimiz olan uşaqların düzgün təlim-tərbiyə almasında,elmə,biliyə yiyələnməsində öz köməkliyini əsirgəmir. İşlədiyi orta məktəbdə mehriban müəllim kollektivi vardır ki, övladlarımızın xoşbəxt gələcəyi naminə əl-ələ verib, şagirdlərin yüksək elmə yiyələnmələrinə doğru yol göstərirlər. Haqqında söhbət açacağım xanım da müəllim adının ucalığını, müqəddəsliyini, əvəzedilməzliyini bütün varlığı ilə duymuş, öz ömrünü bu şərəfli ada həsr edəcəyi arzusu ilə Gəncə Dövlət Universitetinin biologiya fakültəsinə daxil olmuşdu. Gəlin Leyla xanım Paşayevanın 37 illik həyat yoluna nəzər salaq.

Paşayeva Leyla Şahin qızı 1981-ci ildə Tərtər rayonunda ziyalı ailəsində anadan olub. 1987-ci ildə Tərtər rayonunun 6№ li Tam orta məktəbinin I sinfinə daxil olub. 1998-ci ildə Tərtər rayon 6№ li Tam orta məktəbin XI sinfini bitirərək Gəncə Dövlət Universitetinin biologiya fakültəsinə daxil olub. 2002-ci ildə həmin Universiteti bitirib, Tərtər rayon 6№ li Tam orta məktəbində fəaliyyətə başlayıb. Abşeron rayon Masazır qəsəbəsinə ailəliklə köçməsi ilə əlaqədar olaraq 15.09. 2011 -ci ildən müəllim, 2011-ci ildən, yəni həmin ildən də hazırkı günə qədər Kəlbəcər rayon 126 nömrəli tam orta məktəbində tədris işləri üzrə direktor müavini işləyir.

Ailəlidir, iki övladı var. Övladları Kəlbəcər rayonu 126 № li Tam orta məktəbdə təhsilini davam etdirirlər.

Bəli, müəllim elə bir varlıqdır ki, varlığına ehtiyac duymamaq mümkün deyil. Bu ad olan yerdə mənəviyyat, milli şüur var. Müəllimsiz həyat susuz dəyirmana bənzəyir. Müəllim müqəddəs ucalıqdır, dahidir, əvəzedilməzdir.

Leyla xanım Paşayeva da fəaliyyət göstərdiyi məktəbin bütün şagirdləri üçün yaxşı örnəkdir, desək, yanılmarıq. Şagirdləri onu öz doğması kimi sevir, hörmət bəsləyirlər.

İnanırıq ki, Leyla xanım Paşayeva bütün ömrünü bu şərəfli peşəyə həsr edəcək, heç bir çətinlik onu qorxutmayacaq.

# Qarayev Eyvaz



**”İnsan qılıncının kəskinliyi ilə qəhrəman ola bilməz, ağlın kəskin olması lazımdır”**
***(Məmməd Səid Ordubadi)***

Təhsil almaq nəyə gərəkdir? - sualının ətraflı bir cavablandırsaq müzakirəsi günlərlə davam edəcək məqam və tərəflərə aydınlıq gətirilməlidir. Təhsil almaq, elm öyrənmək daha güclü, daha qüvvətli olmaq deməkdir. Təhsilli insan çox şeyə qadirdir deyə cəmiyyətdə ali təhsilli insanlara maraq və dəstəyin olması şərtdir. Çünki keyfiyyətli ali təhsil almış insanlara hər zaman ehtiyac var və olacaq.

Tarix boyu Azərbaycanımız çox ağır talelər, keşməkeşli tarix yaşayıb və yaşamaqdadır. Mənfur qonşularımızla müharibə şəraitindəyik. Qaçqın və köçkünlərimiz var, torpaqlarımız işğal altındadır. Bu qədər çətinliklərin fonunda dünya da isə sivilizasiya dövrüdür, dünya dövlətlərinə inteqrasiya əsridir. İnkişaf etməkdə olan ölkələrin təcrübə və yeniliklərini öyrənmək vacib fakta çevrilib. Ölkədəki bütün problemlərin həlli yolu təhsildən keçir. Yəni bir ölkənin problemlərinin həlli yolu elm, təhsil yoludur.Dövlətimiz, prezidentimiz də bu yolda millətimizə,vətənimizə qayğı və diqqətini əsirgəməməli və elm-təhsil siyasətinə önəm verməlidir. Biz müstəqil Azərbaycan vətəndaşları olaraq, təhsilimizin güclənməsi, inkişaf etdirilməsi üçün böyük işlər görməliyik: oxumalı,çalışmalı, uca zirvələr fəth etməliyik, savadlıları zamanında tanıtdırmalıyıq.

Beləliklə, belə vətənpərvər savadlı, istedadlı balalarımızdan biri olan Eyvaz balamızdan söz açacağıq bu yazıda.

Qarayev Eyvaz Hüseyn oğlu 2010-cu ilin martın 2-də Bakı şəhəri Xəzər rayonu Mərdəkan qəsəbəsində dünyaya göz açmışdır. O, 2016- ci ildə Ağdam rayonu 39 nömrəli məktəbin 1-ci sinfinə getmişdir. Hal hazırda Eyvaz həmin məktəbin 3-cü sinif şagirdidir. Eyvaz balamız ağıllı, təmkinli, dərslərini vaxtı-vaxtında oxuyan şagirdlərdən biridir. Beləliklə gələcəkdə müəllim olmaq, vətənə millətə xeyrli övlad kimi yetişmək üçün əlindən gələni edir. Onun maraqlı rəsmləri, əl işləri də vardır ki, Eyvaz boş vaxtlarını kitab oxumaqla keçirir. Sevdiyi dərs informatika və sevdiyi müəllimi isə Azər müəllimidir. Eyvazın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Qarayev Hüseyn Eyvaz oğlu 2-ci qrup Qarabağ əlilidir və ustadır.

Anası Qarayeva Rəvanə Həsən qızı evdar xanımdır.

Bacısı Qarayeva Ruqiyyə Hüseyn qızı 4-cü sinifdə oxuyur.

Eyvaza jurnalımızın redaksiya heyəti adından təbrik edir, ona həyatda müvəffəqiyyətlər arzulayırıq. Qoy bir ömür uğurları ilə ailəsini və müəllimlərini sevindirsin.



# Əlizadə Tahirə





”Bütün ölkələr üçün vahid universitet modeli ola bilməz.Hər bir universitet öz ölkəsinin ictimai həyatının üzvi hissəsi kimi formalaşmalıdır”
(Rabindranat Taqor)

Elm və bilik insan həyatını mənalandıran, onu zənginləşdirən işıqlı bir yoldur. Odur ki, həyat və güzəranımızı daha mənalı etmək, səmərəli yaşamaq üçün daha çox təhsilə, savada yiyələnməliyik. Savadlı, təhsilli insanla ünsiyyət qurarkən heç yorulmursan. Əksinə onun söhbətindən bir rahatlıq, sakitlik duyursan. Müsahibindən bəzən heç oxumadığın, eşitmədiyin tarixi faktlar, gözəl kəlamlar eşidirsən. Bunlar insan ruhunu qidalandırır, rahatladır. Bilik insanı güclü edir. Çünki bilikli insan həm də ziyalı olur. Ona görə ki, belə insanlar yaşadığı cəmiyyətin bütün keyfıyyətlərini, mənsub olduğu millətin zəngin mənəvi dəyərlərini, tarixi şəxsiyyətlərini tanıyır, dilini, dinini təbliğ edir. Bu cür insanlar eyni zamanda yaşadığı müasir cəmiyyətin nail olduğu texnologiyanın, müasir avadanlıqların və onlarla davranış mədəniyyətinə də sahiblənirlər.Bilikli insan hərtərəfli olduğu üçün hər hansı bir çətin vəziyyətdən çox asanlıqla çıxa bilir. Belə insanlar ziyalılığın göstəricisi kimi güclü ünsiyyət bacarığına da yiyələnmiş olur. Belə ki, dili, ünsiyyəti güclü olan insan malik olduğu bilik və bacarığını daha rahat, başa düşüləcək tərzdə ifadə etmək qabiliyyətindədir. Özünü və gələcəyini daha da yaxşı qurmağa çalışmaq savadlı olmaq və savadlı kadrlar yetişdirmək lazımdır. Buna misal olaraq savadı və bacarığı ilə jurnalımızın qəhrəmanı olan Tahirə balamızdan bu yazıdan bəhs edək.

Əlizadə Tahirə Mircavid qızı 2009-cu ilin avqustun 26-da Biləsuvar rayonunda dünyaya göz açmışdır. O, 2015-cı ildə Eyvaz Kərimov adına Amankənd kənd tam orta məktəbinin 1-ci sinfinə getmişdir. Hal-hazırda həmin məktəbin 4-ci sinif şagirdidir. Uğuru isə əlaçı olmasıdır. Tahirə bütün dərslərini yaxşı oxuyur. Onun ən böyük arzusu gələcəkdə həkim olmaqdır. Onun riyaziyyata olan marağı bir başqadır. Həcər müəllim isə bu balaca qızımızın sevimli müəllimlərindən biridir. Tahirə boş vaxtlarında kitab oxumağı, rəsm çəkməyi sevir.

Tahirənin ailəsi 5 nəfərdən ibarətdir. Atası Əliyev Mircavid Mirhəsənoğlu baytar həkimdir. Anası Allahverdiyeva Lətafət Allahverən qızı müəllimdir.Tahirə balamızın bir bacısı və bir qardaşı var.Bacısı Əlizadə Fatimə Mircavid qızı 2-ci sinif şagirdidir.Qardaşı Əlizadə Mirsaleh Mircavid oğlu az yaşlıdır.

Redaksiyamız heyəti adından Fatimə balamızı təbrik edir, ona gələcək həyatında, dərslərində uğurlar arzu edirik. Qoy uğur baş tacı, kədər ayaq tozu olsun. Uğurları, xoş taleyi ilə sevənlərinin, doğmalarının fəxri olsun.

# Əsədova Nazimə







**”Hər millətin tərəqqisi və fəaliyyətinin başlıca amili elm və əxlaqdır”**

**(Abdulla Şaiq)**

Təhsilin insan həyatında, müstəqil Azərbaycanımızın tarixində oynayacağı rolu böyükdür, mühümdür. Gənclər həyatın ,ölkənin çətinliklərinə baxmayaraq təhsillənməlidirlər.Yəni biz məktəblərin, təhsil müəssisələrinin işinə daha çox qayğı, diqqət göstərməliyik. Hər hansı çətinliyə baxmayaraq, biz təhsili yaşatmalıyıq. Gənclər müstəqil bilik almalı,elmi dərindən mənimsəməli daha da yaxşı istedadlı qabiliyyətli olmalı və bir sözdən yüksək təhsillənməlidirlər. Buna görə də hər bir şagird elə orta məktəbdən oxumağa başlamalı, oxumağın elmin nə olduğunu dərk etməlidir ki onu mənimsəyib gələcəyini, gələcəyimizi daha da yaxşı qursun. Belə istedadlı, ağıllı, təvazökar şagirdlərimizdən olan Nazimə Əsədovadan söhbət açaq.

Əsədova Nazimə Zamiq qızı 2010-cu ilin sentyabrın 20-də Sabirabad rayonunun Poladtuğay kəndində dünyaya gəlmişdir. O, 2016-cı ildə M.İsmayılov adına kənd orta məktəbinin 1-ci sinfinə getmişdir.Hal-hazırda o, həmin məktəbin 3-cü sinif şagirdidir. Dərs əlaçısı olan Nazimə balamızın ən böyük arzusu gələcəkdə müəllim olmaqdır. Buna görə də o, dərslərinə ciddi yanaşır, elmli savadlı bir övlad kimi yetişməyə çalışır. O bütün fənləri və müəllimələri sevir. Lakin Azərbaycan dili və ingilis dili fənləri onun ən çox sevdiyi fənlərdir. çünki o düşünür ki, insan nə qədər dil öyrənsə bu onun gələcək peşəsi və karyerası üçün önəmlidir. Bütün müəllimlər dəyərlidir deyən Nazimə balamız Vüsalə adlı müəlliminin onun üçün bir başqa özəlliyə məxsus olduğunu düşünür. Nazimə dərsdən boş qalan vaxtlarında oyun oynayır, kitab oxuyur.

Nazimənin ailəsi 4 nəfərdən ibarətdir. Atası Əsədov Zamiq işləmir.Anası isə evdar xanımdır. Balaca qardaşı isə 1-ci sinifdə oxuyur.

Redaksiyamızın rəhbərliyi və işçi heyəti adından Naziməni təbrik edirik. Ona həyatda müvəfəqiyyətlər arzu edirik. Uğurların bol, ömür yolu parlaq və xoş xəbərlərlə, sevinclə zəngin olsun.



# Əlizadə Emil




**”Daş-qaş əvəzinə özünə bilik yığsan daha çox tanınarsan: ən qiymətli daşı salıb itirə bilərsən, ən sadə biliyi isə səndən heç kəs ala bilməz”**

***(Əbül Fərəc)***

Təhsilin insan həyatında, müstəqil Azərbaycanımızın tarixində oynayacağı mühüm rolu qiymətləndirərək Ulu öndərimiz Heydər Əliyev qeyd edir ki, gərək gənclərimiz həyatımızın bu çətinliklərinə baxmayaraq təhsillənsinlər. Yəni biz məktəblərin, təhsil müəssisələrinin işinə daha çox qayğı, diqqət göstərməliyik. Hər hansı çətinliyə baxmayaraq, biz təhsili yaşatmalıyıq. Gənclər müstəqil bilik almalıdırlar, təhsillənməlidirlər.

Mərhum prezidentimiz Heydər Əliyev gənclər xalqımızın milli, mənəvi dəyərləri əsasında tərbiyələnməlidir fikrini irəli sürürdü. Elmimizi siz gənclər inkişaf etdirəcəksiniz demişdir. İndiki görkəmli alimlər etdiklərini ediblər, amma elmimizin gələcəyi gənclərin əlindədir. Gələcəyin istedadlı şagirdlərindən biri də Emil balamızdan söz edəcəyik.

Əlizadə Emil Əhsən oğlu 6 sentyabr 2006-cı ildə Bakı şəhərində anadan olmuşdur. O, Ağdam rayonu 38 saylı köçkün tam orta məktəbinin 1 ci sinfinə 2012 ci ildə getmişdir. Hal-hazırda 7-ci sinif şagirdidir.

Bütün dərslərinə məsuliyyətlə hazırlaşan, çalışqanlığı və təlim tərbiyəsi ilə digər yoldaşlarına nümunə olan Emil balamızın gələcək arzusu həkim olmaqdır.

Bütün fənləri sevən və həvəslə oxuyan Emil bütün müəllimlər mənim üçün dəyərlidir deyir. Müəllim dünyada ən müqəddəs varlıqdır ki, bizi öyrədib boya başa çatdırır. Emil məktəbdaxili yarışlarda iştirak edərək tarix fənnindən dəfələrlə diplomlarla təltif edilmişdir.

Boş vaxtlarını dəyərləndirib bədii kitablar oxumağı çox sevir. Bu məşğuliyyət ona dünyagörüşünü artırmaqla yanaşı nitq qabiliyyətini püxtələşdirir.

Emil ailəsinin tək və yeganə övladıdır. Atası Əliyev Əhsən Əfqan oğlu neftçidir. Anası Əliyeva Məqbulə Bəhram qızı mühasibdir. Hər iki valideynin ən böyük arzusu övladlarının uğurlu və xoşbəxt taleyini, xoş sədalarını eşitmək və görməkdir.

Redaksiyamızın rəhbərliyi və işçi heyəti adından Emili təbrik edir, ona həyatda müvəfəqiyyətlər arzu edirik. Uğurların bol olsun.

# Oruclu Xədicə



**"Bilik o vaxt bilikdir ki, o hafizə gücünə deyil, ağıl gücünə qazanılmışdır"**

**(Lev Tolstoy)**

Zəkanın özü də elmin inkişafına bağlıdır. Zəkalı, elmi insanların çoxluq təşkil etdiyi cəmiyyətdə heç vaxt ziddiyyətlər yaranmır, kəskinləşmir, inqilaba, üsyana və kəskin qiyamlara çevrilmir. Mədəni səviyyəsi yüksək olan zəkalı insanları heç bir kənar qüvvə yoldan çıxarda bilməz. Ağıllı adamların çox olduğu ölkəni ədalətsiz qərarlarla ram və istisimar etmək çətin olur. Amma savadlı, təhsilli, elmli cəmiyyəti zülm və səfalət təsiri altında saxlamağa ehtiyac da olmur. Çünki onlar cəmiyyəti və dövlətin özünü də inkişaf etdirirlər. Azad insanların yaşadığı dövlət də daim azad və qüdrətli olacaq. Elmsiz insan azad sayılmaz və ya onun həyatı ali dərəcəyə yüksəlməz. Adi həyat sürən zəkasız insanların çoxluğu qeyd etdiyimiz kimi, cəmiyyəti çürüdə, durğunluğa məruz qoya və dağıda bilər. Gələcəyimizi savadlı gənclik ətrafında qurmalı və möhkəmləndirməliyik. Savadlı yetişkin ağıllı şagirdlərimizdən bir olan Xədicə balamız da bu qənaətdədir. Onun tərcüməyi halı və həyata olan baxışları bu yazıda öz əksini tapıb.

Oruclu Xədicə Rahil qızı 2006-cı ilin 28 fevralında Sabirabad rayonunun Nizami kəndində anadan olmuşdur. O, 2013-cü ildə Sabirabad rayon Nizami kəndi, M.Məmmədov adına tam orta məktəbin 1-ci sinfinə getmişdir. Hal hazırda həmin məktəbin 6-cı sinif şagirdidir. Həmişə dərslərinə ciddi yanaşan,tərbiyəsi ilə yoldaşlarına nümunə olan Xədicənin gələcəkdəki ən böyük istəyi hüquqşünas olmaqdır. Xədicə balamız ötən il dərslərini əla qiymətlərlə oxuduğuna görə məktəb rəhbərliyi tərəfindən "Təşəkkürnamə" ilə təltif edilmişdir. Bu onun indiyə qədər əldə etdiyi ən böyük uğurudur. Amma bu uğurlarının sayını artırmaq və çoxlatmaq onun ən böyük istəyidir. O, Azərbaycan dili, fizika, biologiya musiqi fənlərini daha çox sevir, amma bütün fənnləri oxuyub bacardığı qədər mənimsəyir. Yaqut, İmnarə və Lalə adlı müəllimləri onun ən sevimli müəllimləri sırasındadır. Boş vaxtlarında rəsm çəkməyi, kitab oxumağı və musiqiyə qulaq asmağı sevir. Maraqlı televiziya verilişlərini izləmək onun asudə zamanında məşğul olduğu məşğuliyyətlərdəndir. Onun ailəsi də onunla hər zaman maraqlanır və dərslərinə yaxından kömək edirlər ki, qızları gələcəkdə cəmiyyətin faydalı şəxslərindən biri olsun.

Xədicənin ailəsi 5 nəfərdən ibarətdir. Atası Oruclu Rahil Elxan oğlu inşaatçıdır.

Anası Oruclu Simuzər Telman qızı evdar qadındır. Böyük qardaşı Oruclu Cəlal 10-cu sinif şagirdidir. Balaca qardaşı Oruclu Faliq isə 2012-ci il təvvəllüdlidir.

Redaksiyamız adında Xədicəni təbrik edir. Ona gələcək həyatında uğurlar arzulayırıq. Hər zaman ata ananın fəxri olasan.



# Əsədov Mikayıl







**Bunların (yəni, canlı varlıqların) hərəsi də ona görə belə kamil yaradılmışdır ki, bütün ağıllı adamları heyran qoysun və onlar öz yaradıcılarının hikmət və qüdrətinə əhsən desinlər**

***(Nəsrəddin Tusi)***

Cəmiyyətin (ölkənin, dövlətin, ailənin, fərdin,) yaşaması, inkişaf etməsi elmdən kənar heç nəyə bağlanmır. Cəmiyyət elmi elmin naminə deyil, həm də özünə görə inkişaf etdirməkdə maraqlıdır. “Elm elm üçündür” anlayışı nə qədər cazibədar və ya nə qədər fövqəlbəşər səslənsə də, əslində dolayısı yolla da olsa, yenə elm yalnız insan həyatına xidmət edir. Elmin inkişafı birinci növbədə onun öyrənilməsindən və ötürülməsindən asılıdır. Elm unudulmasın deyə yeni nəslə ötürülməlidir. Yeni nəsil ona hökmən öz əlavələrini edəcək, onu cilalayacaq və deməli, inkişaf etdirəcək. Yaradıcılıq xüsusiyyəti insanın zəkasından və deməli, xislətindən gəlir. Fərd təkcə yeni bir insan yaratmır, həm də bütün köhnəlikləri dəyişərək, inkişaf etdirərək hər şeyin yenisini yaradır. Elm həmişə ictimai həyatın fövqündə durmalı, onu öz arxasıyca çəkməlidir. Sanki qaranlıqda yanan və ya irəlidə görünən işıq kimi. Elm inkişaf etdikcə xalq, millət də inkişaf edir və savadsızlıq ortadan qalxır. İstedadlı, savadlı gələcəyini daha da parlaq olması üçün çalışan Mikayıl balamızdan danışacağıq.

Əsədov Mikayıl Eyvaz oğlu 2009-cu il 19 iyulda anadan olmuşdur. O, 2015-ci ildə 42 saylı Ağdam məktəbinə getməklə təhsil həyatına başlamışdır. Hal hazırda həmin məktəbin 4-cü sinif şagirdidir. Dərslərini yaxşı oxumaqla yanaşı Mikayıl balanın musiqiyə marağı da daha çoxdur. Mikayıl dəfələrlə musiqi və orta məktəbdə musiqi yarışlarında, rəsmi tədbirlərdə iştirak etməklə müəyyən uğur və nailiyyətlərə imza atıb ki, bu da onun bacarıqlı və istedadlı olması ilə bağlıdır. Boş vaxtlarında isə daha çox sevdiyi musiqi sənəti ilə məşğul olur, çoxlu kitab mütaliə edir. Onun arzuladığı peşə isə gələcəkdə polis olmaqdır. Ən sevdiyi dərslər ana-dili, riyaziyyat və təsviri incəsənətdir. Bütün müəllimlərini səmimi qəlbdən sevən və xüsusi rəğbət bəsləyən Mikayılın qəlbində Gülnar müəllim və Əsmər müəllimin yeri başqadır.

Mikayılın ailəsi 4 nəfərdən ibarətdir. Atası Əsədov Eyvaz Habil oğlu maşın ustasıdır. Anası Əsədova Ruhəngiz evdar xanımdır.Kiçik qardaşı Ramazan isə 2-ci sinifdə oxuyur.

Redaksiya heyətimiz adından Mikayılı təbrik edir ona dərslərində və gələcək həyatında bol bol uğurlar arzu edirik. Arzu edirik ki, əldə edəcəyi uğur və nailiyyətlərlə ailəsinin, müəllimlərinin sevinci, fəxri olsun.





# Əsədli Ruslan



**”Bir vaxt gələcəkdir ki, elm xəyalı qabaqlayacaq”**

***(Jül Vern)***

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində təhsil məsələləri xüsusi yer tutur. Ulu öndərimiz ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə nəzərə almış, yüksək dəyərləndirmişdir. Dahi rəhbər deyirdi: “Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır”. Ulu öndərimiz həm təhsilin məzmunu, mahiyyəti, məqsədləri, səmərəli təşkili, müəllim əməyinin şərəfi, şagirdlərin və tələbələrin vəzifələri barədə dəyərli fikirlər söyləmiş, həm də Azərbaycan təhsilinin hərtərəfli yüksəlişi qayğısına qalmış, illər boyu bu sahədə böyük inkişafa rəvac verən sistemli tədbirlər həyata keçirmişdir. Əslində bu gün təshilimizin inkişafında müəyyən çatışmazlıqlar, müəyyən islahatların icrasına ehtiyac duyulduğundan dünyanın inkişaf etmiş ölkələrində kimi yüksək göstərici və nəticələrə malik təhsil sisteminə sahiblənməyimizə hələ ki, zaman var. Bunun tezləşməsi və yaxın gələcəkdə gerçəkləşməsi üçün ciddi təhsil islahatlarına, yüksək ixtisaslı peşəkar kadr və müasir texnoloji yeniliklər əsasında çalışan proqram sistemi əsasında nail olmaq olar. Bütün bunlarla yanaşı, istedadlı, xüsusi savad və bacarığına görə seçilən şagirdlərin də daim diqqət və qayğıda saxlanması, onların istedadının vaxtında üzə çıxarılması və təqdir olunmasına ciddi ehtiyac var. Elə bu məqsədlə yaradılan jurnalımızın əsas qayəsi də xüsusi istedad və qabiliyyətə malik şagirdləri tanımaq və tanıtmaqdır. Sayca 15-ci jurnalımızda tərcüməyi halı yer alan istedadlı şagirdlərdən biri də Ruslan Əsədlidir.

Əsədli Ruslan Emin oğlu 2009 cu ilin 12 noyabrında Sabirabad rayonunun Poladtuğay kəndində dünyaya göz açmışdır. O, 2016-cı ildə M. İsmayılov adına Poladtuğay kənd orta məktəbinin 1-ci sinfinə getmişdir. Hal-hazırda həmin məktəbin 3-cü sinif şagirdidir. Dərslərinə ciddi yanaşan Ruslan yaxşı oxuyub gələcəkdə polis olmaq arzusundadır. O, həm də dərs əlaçısıdır-.İnformatika fənnini daha çox sevən Ruslan balamızın ən sevimli müəllimləri Vüsalə və Hökümə müəllimlərdir. Boş vaxtlarını idmanla keçirməyi çox sevir.

Ruslanın ailəsi 4 nəfərdən ibarətdir.Atası Əsədli Emin Məhəbbət oğlu işləmir. Anası Əsədli Ramilə Oktay qızı evdar xanımdır.Bacısı Əsədli Ləman Emin qızı 1-ci sinif şagirdidir.

Redaksiyamızın rəhbərliyi və işçi heyəti adından Ruslanı təbrik edirik. Ona həyatda müvəffəqiyyətlər arzu edirik. Uğurların bol olsun.



# NİGAR MƏMMƏDOVA



**”Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyatla nəsillərdən-nəsillərə yetirən fikir gəmiləridir”**

***(F.Bekon)***

Əgər kimsə kitab oxumursa o düzgün fikirləşə bilməz deyimi hardasa zamanla öz haqlı mövqeyini göstərməkdədir. Kitabsız ev ürəksiz bədən, bilgisiz baş, lazımsız əşya kimidir. Ona görə də təhsil insanın həyatında mühüm məqamlarından biridir. Onunla özünü həyata bir şəxsiyyət kimi formalaşdıra bilirsən. Əgər bu mərhələdə normal təhsil ala bilsən irəlidəki illərdə elm sahəsində öndə ola biləcəksən. Müsahibimiz Məmmədova Nigar da bizimlə eyni fikirdədir. O da fikirləşir ki, kitab təfəkkürün yorulmayan qanadlarıdır. Ona görə də yazımızın qəhrəmanı həyatının xilasını kitabda, elm-bilik öyrənməkdə görür.

Məmmədova Nigar Rahim qızı 6 dekabr 2005-ci ildə Bakı şəhərində dünyaya göz açıb. 2013-cü ildə 84 saylı tam orta məktəbə ilk dəfə qədəm qoyub. Hal-hazırda elə həmin məktəbin 6-cı sinif şagirdidir. İlk müəllimi Yeganə Tağıyeva olub. Nigar deyir ki, “Mən ilk müəlliməmi ona görə çox sevirəm ki, o mənim gələcəyimə işıq sala biləcək çırağı yandırmaqda köməkçi oldu”. İlk müəllimini heç vaxt unutmayacağını deyən Nigar artıq 6-cı sinif şagirdidir. Elə indi də onun digər sevimli müəllimləri var. Ona dərs deyən müəllimlərin hamısını sevən Nigarın qəlbində bir neçə müəllimi xüsusi yer tutub. Azərbaycan və Ədəbiyyat fənlərini tədris edən Elnur müəllim, riyaziyyat fənn müəllimi Aygün və bialogiya fənnini tədris edən Sənəm müəllim də Nigarın ideal bildiyi müəllimlərdəndir. Elə ona dərs deyən müəllimlər də Nigarı sevir, ən əziz şagird bilirlər. Nigar məktəbə 1 il gec gedib. Səbəb isə uşaq vaxtı səhhəti baxımından çox zəif olması ilə bağlı olub. O çox zərif bir qız olsa da dərslərində belə deyil. Bacarıqlı və aktiv şagirtdir. Bu balaca, zərif, incə qızcığaz öhdəsinə düşən şagird məsuliyyətini, övlad borcunu yerinə yetirməyi bacarır. Elə dərslərin də mükəmməl səviyədə göstəricilərlə öndə gedənlərdəndir. Nümunəvi, qabaqcıl Nigar hər tədris ilinin sonunu əla qiymətlərlə bitirir. Hələ o, 25 noyabr 2017-ci il tarixində “Nizami Tədris Mərkəzi”nin təşkil etdiyi V siniflər arasında keçirilən sınaq imtahanında 84 saylı məktəb üzrə I yerə layiq görülərək “Diplom”la təltif olunub.

Böyüyəndə həkim olmaq istəyir. Gələcəkdə oftalmoloq olub gözlərinin nurunu itirən insanlara işıq, nur bəxş etmək istəyir. Özünü gələcəyin ən mükəmməl həkimi olaraq yetişməsi üçün elmə, biliyə daha çox üstünlük verir.

Nigar şeir yazmağı da bacarır. Hətta bir çox uşaq şerləri yazıb.

4 nəfərdən ibarət olan ailənin ilk övladıdır. Atası Məmmədov Rahim, 1978-ci il noyabrın 2 də Şəki şəhərində anadan olub. Anası Məmmədova Gülbəniz, 1983-cü il fevralın 1 də anadan olub. Qardaşı Məmmədov Ömər 2013-cü ilin martın 25 də anadan olub.

Biz də jurnalımız vasitəsi ilə gələcəyin həkiminə uğurlar diləyirik! Qoy uğur baş tacı, nailiyyətləri bol olsun. Ömür yolu zəngin və bir şəxsiyyətə layiqli formada keçsin.

# İsmayılov Elvin





**"Alim üçün yaddan çıxarmağı bacarmaq yadda saxlamağı bacarmaqdan daha vacibdir"**

***(Xudu Məmmədov)***

Elm obyektiv, sistemli və əsaslandırılmış biliklərin əldə edilməsinə, dəqiqləşdirilməsinə və yayılmasına yönəlmiş insan fəaliyyəti növüdür. Bu fəaliyyətin əsasını elmi faktların toplanması , onların daima yenilənməsi və sistemləşdirilməsi, tənqidi analizi və bu əsasda elmi biliklərin toplanması təşkil edir. Elm təkcə müşahidə edilən təbiət və ictimai halları təsvir etmir, həm də onların əlaqələrini tapır və nəticəni müəyyən edə bilir. İnsan biliklərin müəyyən bir sahəsidir.Məsələn, elmlə məşğul olmaq, həyatını elmə sərf etmək,oxumaqla əldə edilən bilik, məlumatdır. Biz də gələcəyimizi elmə həsr etməli, daha çox bilik əldə etməli və yüksəlməliyik. Gələcəyini daha da yüksəklərdə görən və daha gözəl qurmağa çalışan övladlarımızdan biri də Elvindir ki, onu da seçilən şagird kimi jurnalımızın qəhrəmanlarındandır. Növbəti yazı da onun haqqında qısa da olsa bəhs edəcəyik.

İsmayılov Elvin Elçin oğlu 18 yanvar 2010-ci il tarixində Bakı şəhərində anadan olmuşdur. O, 2016-cı ildə Ağdam rayonu 42 saylı tam orta məktəbin 1-ci sinfinə getmişdir. Hal hazırda o, həmin məktəbin 3-cü sinif şagirdidir. Baxmayaraq hələ ibtidai sinifdə təhsil alır, amma savadı, bacarığı ilə diqqət çəkməyi, öncül olmağı bacarıb. Dərslərinə ciddi yanaşan, istedadlı, qabiliyyətli olan bu balamızın ən böyük istəyi gələcəkdə polis olmaqdır. Riyaziyyat fənni onun ən sevdiyi dərsdir. Dəqiq elmlərinə marağı və riyazi hesablamaya savadı yaxşıdır. Lalə müəllim, Elnarə müəllim və Kəmalə müəllim Elvin balanın sevimli müəllimləridir. Boş vaxtlarında idmanla məşğul olmağı sevir.

Elvinin ailəsi 4 nəfərdən ibarətdir.

Atası İsmayılov Elçin Vidadi oğlu satıcıdır.Anası Həsənova Lalə Gilas qızı müəllimdir. Kiçik qardaşı İsmayılov Ramin Elçin oğlu 2-ci sinif şagirdidir.

Jurnalımız və redaksiya heyətimiz adından Elvin balanı təbrik edir, ona dərslərində və həyatında müvəfəqiyyətlər arzulayırıq. Uğurlar daim onunla olsun. Bir ömür valideynləri və müəllimləri daim onunla qürur duysun.



# Allahyarov Əli







**"Bütöv elm kontexstinə salınmamış ayrıca bir ideya, nə qədər dərin olsa belə, hələ elmi bilik sayıla bilməz"**

***(Əbu Turxan)***

Təhsil və bilik insan həyatında aparıcı rol oynayan ən vacib amillərdəndir. Belə ki, bilik insanın güclü, qüdrətli, müdrik bir şəxsiyyət kimi yetişməsində bir vasitədir. Elm, təhsil eyni zamanda dünya və aləmi, onun əsrarəngiz çalarlarını dərk edib duymaq üçün bir vasitədir. Belə ki, bizi əhatə edən aləm elmin, təhsilin və müasir texnikanın uğurlu nailiyyətlərinə əsaslanır.Elm olmasa dünyanın bütövlükdə inkişafı, dəyişərək yeni mərhələlərə keçid alması mümkün olmaz. Savadlı və təhsilli gəncliyin olması üçün elmə verilən dəyərdən asılıdır. Savadsiz, elmsiz insanlar ömürlərinin sonuna qədər hər yerdə əziyyət cəkirlər. Onlar su üzündə gəmi kimidirlər. Dədə babalarımızın hamısının savadı olmayıb. Belə bir atalar sözü var: Alim olmaq asandı insan olmaq çətin. Təhsilli gələcəyə verilən ən böyük dəyər istedadlı və savadlı şagirdlərin uzə çıxarılmasıdır.Belə istedadlı şagirdlərimizdən biri də Əlidir.

Allahyarov Əli Namiq oğlu 2005 ci ilin mayın 17-də Bakı şəhərində dünyaya gəlmişdir.

Əli 2011-ci ildə Bakı şəhəri Buzovna 38 saylı tam orta məktəbinin 1-ci sinfinə getmişdir. Hal-hazırda o, həmin məktəbin 8-ci sinfində oxuyur. Əli təkcə dərslərində deyil dərsdənkənar işlərdə də öz fəallığı, bacarığı və qabiliyyəti ilə seçilir. O, güləş, üzgüçülük üzrə dəfələrlə yarışlarda iştirak edərək birinci yerə çıxmışdır. O, idmanla məşğul olmağı sevir. Onun bu nailiyyətləri həm valideynləri üçün, həm də məktəb üçün böyük qürurdur. Əlinin ən sevdiyi fənlər fiziki tərbiyə, fizikadır. Bütün müəllimlərini çox sevən Əlinin Nailə müəlliminin yeri onda bir başqadır. Gələcəkdə İdman müəllimi olmaq arzusundadır. Çünki idmanı sevir və onunla məşğul olur.

Əlinin ailəsi 5 nəfərdən ibarətdir. Atası Allahyarov Namiq Amanxan oğlu 2-ci qrup Qarabağ əlilidir. Anası Qasımova Aygül Həsənağa qızı evdar xanımdır. Qardaşları Allahyarov Saleh Namiq oğlu və Allahyarov Taleh Namiq oğlu idmançıdırlar və güləşlə məşğul olurlar. Əlinin də idmana marağı onlardan qaynaqlanır. Ailəsi də onu hər zaman arzu və istəklərində dəstəkçidirlər.

Əliyə redaksiyamız adından uğurlar diləyərək gələcək həyatında müvəffəqiyyətlər arzulayırıq. Uğurların bol olsun. Səsin daim ucalardan eşidilsin.

# Aysən Qəniyeva






**"Elm adamlarının qədrini bilməyən və onların layiq olduğu mükafatı verməyən ölkələr inkişaf edəcəklərini zənn etməsinlər"**

***(Volter)***

Bu məşhur ifadənin müəllifi olan Volter məlum fikri ilə böyük bir həqiqətin izinə işıq salmaqla sanki əsrimizin dünyasında çatışmazlığın bütün gerçəklərini hədəfə alıb, onu təsvir edib. Çünki elm ağlın çırağıdır. Ağlını işıqlandırmaqla gələcəyini daha parlaq edən şəxslər həm də zamanla dünyamızın dühasına, aliminə çevrilirlər, dünya, bütün cəmiyyətlər üçün yeni-yeni elmi-texnoloji kəşflər edirlər. Elm həm də o qədər qəlizdir ki, ancaq xoş niyyətli insanların əlində fayda verə bilər. Onu qavramaq və dərk etmək üçün gərək insan təhsilli olsun. Çünki bütün elmlərin bünövrəsi təhsillə qoyulur. Güclü təhsil sistemi güclü gələcək, güclü iqtisadiyyata və sağlam inkişaf modelinə məxsus ölkə formalaşdırır. Hazırda bu modeldən dünyanın inkişaf etmiş əskər ölkələri faydalanmaqla öz müsbət bəhrəsini görür. Dünyanı istəyən də, axirəti istəyən də gərək elmə sarılsın. Çünki nicat elmdə, təhsilli gələcəkdədir. Elm idealar dramıdır. Bu dramın qəhrəmanı olmaq istəyənlər ildən-ilə artmaqda və yüksək təhsilin arxasınca qaçmaqdadır. Eləcə də bizim ölkənin orta ümumtəhsil ocaqlarında elmə maraq göstərən gənclər son illər dünyada texnoloji bilginin güclənməsi ilə əlaqədar xaricə yollanmaqla yüksək təhsil alıb öz sahələrinin peşəkarı olmağa səy göstərirlər, hətta bunu bacarırlar. Belə əmin yolda indidən uğurla addımlayan bacarıqlı və savadlı şagirdlərimizdən biri də Aysən Qəniyevadır. Kiçik yazımızı onun tərcümeyi halına sərf eləməklə, həm də onun gələcəyə doğru yol aldığı ümidli inamına bir stimul vermək qənaətindəyik.

Qəniyeva Aysən Abdullah qızı 2003-cü ildə Şamaxı rayonunda doğulub, böyümüşdür. O, 2010-cu ildə 42 saylı Ağdam rayon tam orta məktəbinin 1-ci sinfinə getməklə ilk təhsil həyatına başlamışdır. Bu illər ərzində öz zəhməti və məsuliyyəti çalışıb oxuyan Aysən hazırda həmin məktəbin 9-cu sinif şagirdidir. Müəllimlərinə böyük sevgi və sayğı ilə yanaşan Aysən daim onların zəhmət və əziyyətini qiymətləndirir, sevgi və sayğılarına layiq olmağa çalışır. Buna görə də dərslərinə məsuliyyətlə hazırlaşan çalışqan Aysən balanın ən böyük arzusu da gələcəkdə peşəkar musiqiçi olmaqdır. O yaxşı bilir ki, musiqiçi peşəsi çətin olduğu qədər məsuliyyətli və şərəflidir. Onun istedadı da məhz aldığı musiqi təhsili ilə bağlıdır. Belə ki, Aysən şirvan torpağının ona verdiyi saz-söz sənətinin irsi daşıyıcısı kimi saz musiqi alətində ifa etməyi bacarır. Hətta 28 saylı musiqi məktəbində bu musiqi aləti üzrə peşəkar təhsilini də alır. Onun musiqi məktəbindəki müəllimi Həsənov Şahin müəllimdir ki, o da saz sənətinin bütün incəliklərini ona və digər şagirdlərə öyrətməklə mədəni irsimizin gənc nəsillər vasitəsilə yaşamasına səbəbkar olur. Məhz bu istedadına görə Aysən bala bir çox məktəb tədbirlərində iştirak edir və aktivliyi ilə seçilir. Orta məktəbdə isə ən çox sevərək oxuduğu fənlər Azərbaycan dili, Ədəbiyyat və musiqi fənləridir ki, bu da onun musiqiyə və doğma ana dilinə olan sevgisindən, sayğısından qaynaqlanır. Bütün fənn müəllimlərinə dərin hörməti olsa da onun üçün Elzona, Nüşabə və Zülfiyyə adlı müəllimləri bir başqadır. Boş vaxtlarını saz musiqi alətində ifa etməklə və müxtəlif janrda olan musiqiyə qulaq asmaqla keçirir. Musiqiyə olan sevgi və sayğısını ona ailəsindən, valideynlərindən irsən qaynaqlanan bir şəxsi keyfiyyət kimi xarakterizə etmək olar.

Aysənin ailəsi 4 nəfərdən ibarətdir. Atası Həsənov Şahin Kamal oğlu musiqi müəllimidir. 1975- ci il təvəllüdlü anası Həsənova Yaxşı Babaqulu qızı musiqiçidir. Hal-hazırda toy mərasimlərində qadın məclislərinin aparıcısı kimi çalışaraq ailəsini halal qazancla dolandırır. Özündən yaşca kiçik 2005 -ci il təvəllüdlü Aysu adında bir bacısı var ki, o da Ağdam 42 saylı tam orta məktəbin 7-ci sinif şagirdidir.

Redaksiya heyyəti adından Aysən balamızı təbrik edir ona gələcək həyatında, dərslərində uğurlar diləyirik. Səsin daim yüksəklərdən eşidilsin, ömür yolun parlaq olsun. Arzu edirik ki, musiqi sənətinin bütün incəliklərinə dərindən bələd olub xalqımızın sahib olduğu bu mədəni irsin tanıdılması və yaşadılmasında öz layiqli xidməti olan bir şəxsiyyət, böyük musiqiçi olasan.



# AYLİN ƏHMƏDOVA





"Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiyməti yükünü ehtiyyatla nəsillərdən nəsillərə yetirən fikir gəmisidir"

Bilik-həyatda faydalı olmaq naminə qazanılmalıdır. Çünki faydasız bilik heç nəyə yaramır. Bu biliklərin isə əsas toplandığı mənbə kitablardır. Kitabsız insan cahil və mənəvi yoxsul insandır. Odur ki, cahil və bilgisiz olmamaq üçün oxumaq, oxumaq yenə də oxumaq lazımdır. İstər dünyəvi, istərsə dini kitablarda da oxumağın, elmin, biliyin faydası həmişə üstün hesab olunub.

Elm təbiət, cəmiyyət və təfəkkürün inkişafı haqqında bilik sistemidir ki, insan bunun sayəsində istənilən zirvəyə qalxa bilmək şansını əldə edə bilir. Elm insanı həm ucaldır, həm də inkişaf etdirir. Demək olar ki, elm insanı alilləşdirən amillərdən ən əsasıdır. Jurnalımızın sorağında olduğu bilikli, bacarıqlı şagirdlərimizdən biri də Laçın rayon 29 saylı məktəbinin 3-cü sinif şagirdi Əhmədova Aylindir.

Əhmədova Aylin Təvəkkül qızı 4 fevral 2010-cu ildə Bakı şəhərində anadan olub. 2016-cı ildə Nərmanov rayonunun 178 saylı tam orta məktəbinə yollanan Aylin 2018-ci ilin tədris ilindən etibarən Laçın rayon 29 saylı tam orta məktəbində təhsilini davam etdirir. Onun ilk müəllimi Sevinc Əsədova olub. Teztez müəllimini və keçmiş sinif yoldaşlarını xatırlayan Aylin onlar üçün çox darıxdığını dedi. Onları heç vaxt unutmayacağını deyən Aylin sinifindən ayrılmasının səbəbi yaşayış ünvanlarının dəyişilməsindən irəli gəldiyini bildirdi. Xatırladaq ki, keçən ilin yayında ölkə prezidenti İ.Əliyevin məcburi köçkünlər üçün tikdirdiyi yeni qəsəbədə "Qobu Park"da Aylingil də yeni mənzillə təmin olunduğundan O, yeni mənzildə yaşamaqla yanaşı, yeni təmirli məktəbdə də təhsil almalı olur. Hazırda təhsil aldığı məktəb həm böyük və geniş, həm də işıqlıdır. Aylin burada 3-cü sinifdə oxuyur. Çox mehriban kollektivi olan bu məktəbdə savadlı müəllim heyyəti var. Aylinin buradakı müəlliminin adı isə İlahə Məmmədovadır. İlahə müəllim çox mehriban və bir qədər də ciddidir. O, hər bir şagirdin dilini bilir. Əvvələr hər bir şey Aylinə bir qədər qəribə gəlsə də, o tezliklə sinif rəhbərləri İlahə müəllimə və yeni sinif yoldaşlarına öyrəşir. Aylin ingilis dili və informatika fənlərini ona tədris edən Xatirə və Rəvanə adlı müəllimlərini də çox sevdiyini qeyd etdi.

Aylin oxuduğu 3 il ərzində daim əla qiymətlər almağa nail olub. Çünki o, çox çalışqan və zəhmətsevər qızdır. Bütün fənləri sevə-sevə oxuyur. Aylinin yaxşı əl qabliyyəti də var. Baxmayaraq ki, heç birinin təhsilini almır, amma Aylinin həm rəsm çəkmə, rəqs etmə bacarıqları da var. İdmanla da hərdən məşğul olur. Asudə zamanlarını səmərəli keçirməyə çalışan Aylin dərslərini təkrarlayır, çoxlu kitab mütaliə edir, müxtəlif mövzularda yazılar yazır. Gələcəkdə isə həkim olmaq istəyir. Arzusudur ki, gələcəyin tanınmış həkimi olsun, xəstələrə öz şəfalı əlləri ilə kömək etsin, savadı ilə faydalı olsun. Bilir ki, həkim olmaq üçün çox oxumalı, öyrəndiklərini tez-tez təkrarlamalıdır. Aylin valideynlərinin ilk övladıdır. Bütün ailə üzvləri onu çox istəyirlər. Elə Aylin də onların bu sevgisinə biganə qalmır. Çalışır ki, valideynləri, bacı və qardaşı onunla həmişə fəxr etsinlər.

Aylinin ailəsi 5 nəfərdən ibarətdir. Atası Əhmədov Təvəkkül"taxi" sürücüsüdür. Anası Əhmədova Günay evdar xanımdır. Aylinin özündən kiçik 1 bacısı və 1 qardaşı var. Bacısı Əhmədzadə Yağmurun 7, Əhmədzadə Əhmədin isə 3 yaşı var.

Elm sərkərdə, təcrübə isə onun əsgəridir deyən Leonardo Da Vinçi gəncləri, şagirdləri elm sahəsində sərkərdə, təcrübə məsələsində isə əsgər kimi fəaliyyət göstərməyi məsləhət bilir.Çünki belə olmadığı təqdirdə insan öz məqsədinə nail ola bilmir. Biz də Aylinə dərslərində uğur və nailiyyətlər diləyirik. Arzu edirik ki, gələcəkdə səsi uca zirvələrdən gəlsin!

# DİLARƏ HEYDƏROVA





**”Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir, ədəbi səadət verilmişdir”**

***“Qurani-Kərim”dən***

Müəllim! Bu ad hər kəs üçün əzizdir. Cəmiyyətin, millətin gələcəyi müəyyən mənada müəllimin əlindədir. Bir milləti məhv etmək üçün onun müəlliminin savadsız olması kifayətdir. Digəri isə doğma dilini əlindən almaqdır. Biri yer üzündən mövcudluğunu əbədi silər, digəri isə ömürlük mənəvi şikəst edər.

Müəllimə dünyanın ən məşhur insanları öz sevgi və sayğılarını müxtəlif aforizmlərlə bildiriblər. Ən ülvi adları müəllimə şamil ediblər. Müəllimi günəş qədər şəfəqli, ay qədər nurlu, hətta ana qədər doğma hesab ediblər. İxtisasını dərindən bilən və onu layiqincə tədris edən müəllimlərə istənilən təhsil ocaqlarının böyük ehtiyacı, böyük rəğbəti var. Çünki gələcəyin çarçılarının həyatı onların öyrətdiyi elm və bilgisinin səviyyəsindən, mədəniyyətin aşılanmasından asılıdır.

Elə müsahibimiz Dilarə də bu qənaətdə olaraq öz müəllimləri haqqında çox gözəl təəsürratlarını jurnalımızın vasitəsi ilə oxucularımıza bildirdi. Özü də gələcəkdə bu peşənin adamı olmaq istəyən Dilarəni sizlərlə də tanış edirik ki, ölkəmizin belə ağıllı və savadlı şagirdini tanıyasınız.

Heydərova Dilarə Nəsimi qızı 9 mart 2005-ci ildə Sumqayıt şəhərində anadan olub. 2010-cu ildə Sumqayıt şəhərində yerləşən 9 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olub. 2-ci sinfi Sumqayıt şəhər 9 nömrəli tam orta məktəbində bitirən Dilarə 2012-ci ildə Bakı şəhərində yerləşən H.Hüseynov adına 83 nömrəli məktəb-liseyinin 3-cü sinfinə, 2013-cü ildə isə Bakı şəhəri Binəqədi rayonundakı Həsən Cəbrayılov adına 99 nömrəli tam orta məktəbin 4-cü sinfinə daxil olub. Hal-hazırda Həsən Cəbrayılov adına 99 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdidir. Müsahibəni elə Dilarənin ozündən aldıq. O, çox mehriban və mülayim bir qızdır. Gəlin, elə öz dediklərini olduğu kimi sizlərə təqdim edək.

Dilarə deyir ki, birinci sinifdə ona ana kimi doğma olan, şagirdlərinə yazmağı, oxumağı öyrədən, əziz müəllimi Təranə Quliyeva olub. O, öz müəlliminin şagirdi olması ilə qürur duyur. Onun sayəsində sinfin yaxşı oxuyanlar sırasında olduğunu da əlavə etdi. Səmimi aurası və xoş münasibətinə görə fərqləndirdiyi müəllimi də onunla qürur duyur. Çünki Dilarə yaxşı oxumağının nəticəsi kimi ibtidai sinfi “Fərqlənmə Diplom”u ilə bitirib.

Dilarə 8-ci sinifdə oxuyur. O bütün müəllim və müəllimlərini onlara çəkdiyi əziyyətə görə dəyərləndirir və əməyinin qiyməti kimi onlara layiqli yetirmə olmağa çalışırlar. Ancaq artıq 3 ildir ki, sinif rəhbəri olan Ramilə Xudaverdiyevanı, tarix müəllimi Tahirə Bayramovanı və bialogiya fənnini tədris edən Gülnarə Allahverdiyevanı daha çox sevir. Səbəbi həm bu fənnlərə olan sevgisi və müəllimlərinin keyfiyyətli tədrisi ilə bağlıdır. O deyir ki, yaxşı ki, onun belə mehriban, savadlı müəllimləri var. Ümumiyyətlə, Dilarə təhsil fədailəri arasında ayrı-seçkilik etmədən çəkdikləri zəhmətə görə bütün müəllimlərinə ayrı-ayrılıqda təşəkkür edib söz verdi ki, onların çəkdiyi zəhməti heç bir zaman unutmayacaq və adlarını təhsilinin uğurları ilə daim uca tutacaq.

O böyüyəndə Azərbaycan dili və Ədəbiyyat müəllimi olmaq istəyir ki, bu onun ən böyük arzusudur. Çünki dilinə və ədəbi yaradıcılığa böyük marağı var. Gec-tez peşəkar pedaqoq olaraq bunu icra etmək və cəmiyyətə öz faydasını vermək istəyində israrlıdır. Elə daim ona dəstək verən, arzularını qanadlandıran, yaşam səbəbi olan ailəsi də Dilarə ilə qürur duyur və gələcəyini parlaq görmək istəyir.

Dilarəgil ailədə 4 nəfərdirlər. Atası Heydərov Nəsimi Heydər oğludur. Anası Heydərova Vüsalə Əmir qızı 17 iyun 1983-cü ildə Zəngilan rayonunun Məmmədbəyli kəndində anadan olub. Hazırda baş aşbazdır. Ailəsini dadlı əlləri ilə bişirdiyi dadlı təamlardan gələn halal qazancla dolandırır. Dilarə üçün həyatda ən ideal insan məhz onların qayğısını və zəhmətini çəkən doğma anasıdır. Bir bacısı və bir qardaşı var. Bacısı Heydərova Aytən, 5-ci sinifdə, qardaşı Heydərli Heydər isə 3-cü sinifdə oxuyur. 9 yaşlı qardaşı idmançıdır. Klublararası yarışlarda iştirak edərək, müxtəlif yerlər tutub. O, qardaşı ilə də qürur duyur.

Elm-təhsil böyük bir mübarizə, əzmkarlıq tələb edir ki, gərək məqsədli olub yorulmadan bu yolda istiqamətlənəsən. Jurnalımız vasitəsi ilə biz də Dilarəyə dərslərində və gələcək həyatında müvəffəqiyyətlər arzulayırıq. Ümidvarıq ki, Dilarə gələcəyin ən peşəkar pedaqoqu olacaq. Uğurların bol, sədan ən yüksək zirvələrdən gəlsin!



# Eminova Yeganə





**”Övladım! Vaxtının bir hissəsini elm öyrənməyə ayır! Çünki heç bir şey elmdən usaqlaşmaq kimi insan ömrünü məhv etmir”**

***(Loğman: Hikmət sahibi)***

Ümumtəhsil məktəblərində qazanılan biliklərin mahiyyətini, mündəricəsini yüksək qiymətləndirən ulu öndər hər bir insanın həyat mövqeyinin formalaşmasında, cəmiyyətdə öz yerini tutmasında orta təhsilin çox böyük əhəmiyyət daşıdığını vurğulamışdır. Ulu öndərimizin aşağıdakı dəyərli fikirləri bu baxımdan səciyyəvidir: “İnsan təhsilinin əsasını orta məktəbdə alır.Əgər onun fundamental, köklü orta təhsili varsa, o, cəmiyyətdə özünə yer tapacaq, çalışacaq, cəmiyyətimizin şüurlu üzvü olacaqdır”. Bu mövzunun davamı kimi qeyd edək ki, dahi rəhbərin orta təhsilin qarşısında duran vəzifələrlə bağlı qiymətli tövsiyə və tapşırıqları da bütün zamanlar üçün dəyərini saxlayan əsl fəaliyyət proqramıdır.“Bizim uşaqlarımız, gənclərimiz hər bir fənni bilməlidirlər və xüsusən o fənlərdə ki, ixtisaslaşmaq istəyir, onu daha da yaxşı bilməlidirlər. Ana dilini bilməlidirlər, ədəbiyyatımızı bilməlidirlər, bizim tariximizi bilməlidirlər, bizim mədəniyyətimizi bilməlidirlər”. Bəli köklü orta təhsil, keyfiyyətli tədris şagirdlərin gələcək həyatını müəyyən edir və onların uğurlu olması üçün bu vacib şərtdir. Əsas məsuliyyət də müəllimlərin, ixtisaslı pedaqoqların üzərinə düşür ki, orta məktəbdə tədrisin keyfiyyəti yaxşılaşdırılsın və yüksək səviyyəyə çatdırılsın. Eyni zamanda şagirdlər də məsuliyyətli olub 11 illik orta təhsil həyatını səmərəli keçirib, tədrisə layiqlə yanaşsınlar. Beləliklə belə şagirdləri daim diqqət mərkəzində saxlayan jurnalımızın da bu sayının qəhrəmanlarından biri də gələcəyinin parlaq olması üçün çalışan, tərbiyəsi və davranışı ilə sinifdəki digər şagirdlərdən fərqlənən balaca balamız Yeganədir.

Eminova Yeganə Tural qızı 2005-ci ilin oktyabrın 4-də Mingəçevir şəhərində anadan olmuşdur. O, 2011 ci ildə Ağdam rayon 42 saylı tam orta məktəbin 1-ci sinfinə getməklə ilk təhsil həyatına başlamışdır. Hal hazırda həmin məktəbin 8-ci sinif şagirdidir. Yeganə balamız dərslərində aktiv və fəal iştirak etməklə həm şagirdlərin, həm müəllimlərinin diqqətini və rəğbətini qazanmağı bacarıb. Dərslərini, ona keçirilən fənləri əla qiymətlərlə oxumaqla həm gələcəyini uğurlu qurmaq, həm ailəsinin, müəllimlərinin ona olan etimadını, inamını doğrultmaq istəyir. O nümunəvi şagird olmaqla yanaşı parlaq istedada və maraqlı əl qabiliyyətinə malikdir. Biri-birindən maraqlı əl işləri və rəsmləri var ki, boş vaxt tapan kimi sevimli məşğuliyyət olaraq O, bu işlə məşğul olur. Odur ki, onun ən böyük arzusu gələcəkdə rəssam olmaqdır. Təksə rəsmlə kifayətlənməyən Yeganə şeir müsabiqələrində iştirak edərək dəfələrlə təltif edilmişdir. Onun bədii qiraət qabiliyyəti xüsusi olaraq bəyənilir və o, bunu yaxşı bacarır desək yanılmarıq. Bütün fənləri oxuyan Yeganənin ən çox sevdiyi fənlər isə rus dili və təsviri incəsənətdir. Müəllimlərindən Lalə və Məlahət müəllimlərinin isə onun qəlbində yeri başqadır. Asudə vaxtlarını rəsm çəkmək, mahnı ifa etməklə keçirir. Övladlarının istedad və bacarıqlarına bələd olan valideynləri Yeganənin gələcəyini parlaq görmək və arzularının çin olmasını istəyirlər. Ailəsi özü ilə birgə 4 nəfərdən ibarətdir.

Atası Eminov Tural Malik oğlu 1984-cü il təvəllüdlidir. 1983-cü il təvəllüdli anası Abdullayeva Günay İsmayıl qızı mağazada işçidir. Qardaşı olmasa da bir bacısı olan Eminova Xədicə Tural qızı 4-cü sinif şagirdidir.

Yeganəni jurnalımızın redaksiya heyəti adından təbrik edirik, ona həyatda müvəffəqiyyətlər arzulayırıq. Daim səsin ucalardan gəlsin. Elmin-biliyin ona öyrətdiyi həqiqətlər və gerçəklər daim həyat yolunda ona yardımçı və kömək olsun.

# Gözəlova Nurida







**”Alimlərin ruhu elm məbədində əbədi həyata qovuşur”**

***(Əbu Turxan)***

Elm öyrənmək böyük zəhmət, qabiliyyət və zaman tələb edir. Bu işdə bilikli, dünyagörüşlü, müasir texnika, onun nailiyyətlərinə, istifadə qaydalarına yiyələnmiş vətənpərvər, fədakar müəllimlərimiz böyük rol oynayır. İnsan yalnız elmi, təhsili, hərtərəfli dünyagörüşü ilə başqalarından fərqlənə bilər.Hər birimiz hər an yeni bir bilgi əldə etməyə çalışmalı, təhsilimizi, biliyimizi artırmalıyıq. Çünki, bilik və təhsil almadan heç nə əldə edə bilmərik. Elmlə məşğul olmaq, həyatını elmə sərf etmək, oxumaqla əldə edilən bilik, məlumatdır insan həyatının əsas mənası. Biz də gələcəyimizi elmə həsr etməli, daha çox bilik əldə etməli və onunla yüksəlməliyik. Eyni zamanda bu vacib məqamı yetişən gənc nəslə, gənclərə aşılamalıyıq. Gələcəkdə müəllim olmaq arzusunda olan Nuridə Gözəlovadan jurnalın bu yazısında bəhs etmişik. O da gələcəyini elm-təhsil yolundan salaraq o sahənin əqidaşı olmaq istəyir.

Gözəlova Nuridə Yusif qızı 2005-ci ilin 7 iyul tarixində İmişli rayonunda dünyaya gəlmişdir. O, 2011-ci ildə Zəngilan rayonu 21 saylı tam orta məktəbin 1-ci sinfinə getmişdir. Hal-hazırda həmin məktəbin 8-ci sinif şagirdidir. Nuridə balamız ağıllı, təmkinli, dərslərini vaxtı-vaxtında oxuyan şagirdlərdən biridir. Ötən 8 il müddətində o öz savad və bacarığı, mənimsə üstünlükləri ilə sinif yoldaşları arasında seçilib və müəllimlərin rəğbətini qazanıb. Müəllimlik sənətinə xüsusi rəğbəti olan Nuridə gələcəkdə müəllim olmaq, vətənə millətə xeyrli övlad kimi yetişmək üçün əlindən gələni edir. O, kimyanı, biologiyanı, ana-dili, fizika və riyaziyyatı daha çox sevir. Dəqiq və təbiət elmləri onda xüsusi zövq və maraq yaradır. Bu fənlərdən dolayı onda həkimlik sənətinə də xüsusi rəğbəti var. Gələcək də həkim də olmaq kimi arzusu da var desək yanılmarıq. Çünki indidən iki peşə arasında seçim tərəddüdü arasında qalsa da biliyi, marağı və savadı yetərli olduğu peşəyə yönələcəyini özü üçün qətiləşdirib. Yəni qarşıda zamanı var ki, seçimini yanlışlıq etmədən qətiləşdirsin. Bütün müəllimlərinə hörmət etsə də Günay müəllim, Nuranə müəllim, Nəsibə müəllim və Gülnarə müəllim Nuridənin ən sevimli müəllimlərindəndir. Boş vaxtlarında bədii əsərlər oxuyur, maraqlı faktlar araşdırır. Hətta gələcəyi ilə bağlı maraqlı planlar qurur. Müəllim olduğu təqdirdə isə təbiət fənlərinə daha çox üstünlük verəcəyini qeyd edir.

Nuridənin ailəsi 4 nəfərdən ibarətdir. Atası Xanışov Yusif Rzaxan oğlu ali təhsillidir və usta işləyir. O, 1971-ci ildə İmişlidə anadan olub. Bir müddət Rusiyada yaşasa da sonradan vətənə geri dönməli olub. Anası Gözəlova Rahilə Sədirxan qızı ali təhsillidir və evdar xanımdır. O 1977-ci ildə İmişlinin Xəlfəli kəndində doğulub, böyüyüb. Gözəlov Nurəddin Yusif oğlu adında bir qardaşı var ki, o da Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbəsidir.

Jurnalımız adından Nuridə balamızı təbrik edir, ona gələcək həyatında, dərslərində uğurlar arzu edirik. Atanın, ananın, müəllimlərinin daim fəxri, qüruru olasan.



# HəŞİMOV AMİN







**”OXUMAĞIN TƏFƏKKÜRƏ FAYDASI FİZİKİ HƏRƏKƏTLƏRİN BƏDƏNƏ OLAN FAYDASINA BƏRABƏRDİR”**

***(Cozef Addison)***

Təhsilin keyfiyyəti nə qədər yüksək və mükəmməl olarsa, maddi və texniki bazası nə qədər müasir, biliklərin ötürülməsi nə qədər aktiv və sürətli olarsa bir o qədər gözəl nəticələr əldə etmək olur. Elə buna görə son illər təhsil həyatını xaricdə davam etdirən və keyfiyyətli təhsil axtarışında olan insanların, gənclərin sayında artım müşahidə olunur. Müasir Azərbaycan gənci daha savadlı, bilikli olmaq məqsədi ilə təhsilə daha çox maraq göstərməkdədir. Çünki yaşadığımız əsr bunu tələb edir. Həşimov Amin Amil oğlu da jurnalımızın seçərək səhifəsinə çıxartdığı elmə, təhsilə önəm verən savadlı şagirdlərindən biridir.

Həşimov Amin Amil oğlu 14 fevral 2008-ci ildə Bakı şəhərində anadan olub. 2014-cü ildə 8-ci mikrorayonda yerləşən Nizami Mərdanov adına 248 nömrəli tam orta məktəbinə yollanıb. ilk müəllimi Gültəkin Rəhimova olub. 2-ci sinifi 248 nömrəli tam orta məktəbdə bitirən Amin yaşayış ünvanlarını dəyişdikləri səbəbindən 2016-ci tədris ilinin əvvəli, yəni 3-cü sinifdə etibarən Füzuli rayon 1 saylı tam orta məktəbində təhsil almalı olub. Burada ibtidai sinif rəhbəri Kifayət müəllim olub. Amin artıq 5-ci sinifdə oxuyur. Burada isə sinif rəhbəri Sevinc Adıgözəlovadır. Bütün müəllimlərini sevən və onlara xüsusi rəğbət bəsləyən Amin təhsilə, elmə çox ciddi yanaşır. Elə buna görə də məktəbin fəalları sırasında özünə münasib yer tutub. Daim qabaqcıllar sırasında gedən Amin oxuduğu illər ərizində müəyyən nailiyyətlər əldə edə bilib. Belə ki, 2014-2015 tədris ilini müvəffəqiyyətlə tamamladığına görə “Təşəkkürnamə”ilə, 2015-2016-cı tədris ilini yenə də uğurla başa vurduğuna görə ”Diplom”la və ibtidai sinifi, yəni 4-cü sinifi əla qiymətlərlə bitirdiyi üçün “Fəxri Fərman” la təltif olunub. Amin çalışır ki, 11-ci sinifi də belə əla qiymətlərlə bitirib Tibb Universitetinə daxil olsun. Gələcəkdə həkim (cərrah) olmaq istəyən Amin hələ şəxsi klinika da açdırmaq arzusundadır. Arzusu böyük, məqsədi israrlı olan bu oğlan cəmiyyətdə öz mövqeyi, öz şəxsiyyəti ilə seçilmək istəyən, öz imzası ilə tanınmaq israrında olanlardandır.

Amin bir qədər fərqli şagirtdir. Sakit təbiətə malik olan bu uşaq çox düşüncəlidir. Heç vaxt müəllimələrini zəhmətini unutmayan Amin müəllimləri haqqında təəssüratlarını da bizimlə bölüşdü. Bildirdi ki, heç vaxt müəllimlərini ona sərf etdiyi əmək və zəhmətinə görə unutmayacaq. Ən çox zəhməti olan Kifayət müəllimi isə bir başqa xoş xatirə və sevgi ilə andı. Çünki Kifayət müəllim çox savadlı, şagirdlərinə elmi lap dərindən öyrətməyə çalışan bir pedaqoqdur. Amin jurnalımız vasitəsi ilə başda Kifayət müəllimə olmaqla ona dərs deyən bütün müəllimlərə minnətdər olduğunu bir daha qeyd etdi.

O müəllim xoşbəxtdir ki, onun dərs dediyi şagird onun əməyini dəyərləndirir, zəhmətini itirmir, gələcəkdə onun başını uca edir.

Amin dərsdən əlavə rəqslə də məşğul olub. Bu incəsənət növünə Amilin marağı böyük olduğu üçün valideynləri onu rəqs dərnəyinə qoyublar. Amin “Ayxan” rəqs qrupunun üzvü olub. Gözəl rəqs etməyi bacarır. Bir sözlə, Amin hərtərəfli uşaqdır. Anası Leyla xanım Amin haqqında qürurverici danışırdı. Hiss olunurdu ki, ana övladı ilə çox fəxr edir. Elə Amin atası üçün də çox əziz övlatdır. Valideynlərinin məqsədi və arzusu övladlarını uca zirvələrdə görməkdir.

Ailədə 4 nəfərdilər. Atası Həşimov Amil Fərman oğlu, dizaynerdir. Anası Qarayeva Leyla Zakir qızı, Mədəni Maarif Texnikumunun ibtidai sinif müəllimliyi üzrə oxuyub, hazırda işləmir. Özündən yaşca böyük bacısı Aysu isə 7-ci sinifdə oxuyur.

Jurnalımız adından Aminə dərslərində və gələcək həyatında müvəffəqiyyətlər arzulayırıq. Yolun açıq, arzuların gerçək, uğurların bol olsun!

# HƏŞİMOVA AYSU





**Elmdir cümlə sənətin dəyəri, elmsiz sənətin nədir səməri?**

***(Abbas Səhhət)***

Dünyanın hər bir yerində, ictimai inkişafın hər bir mərhələsində cəmiyyətin təhsillə üzvi bağlılığı olub. Gənc nəsillərin tədrisi, öyrədilməsi, maarifləndirilməsi ən qədim fəaliyyətlərdəndir.

Təhsilin əhəmiyyəti bir çox amillərlə bağlıdır. Məsələn, aydındır ki, uşaqlar həyata ilk addımını atanda oxunu, yazını və hesabı bilmirlər. Peşəkar müəllimlərin səyləri və ilkin orta təhsil, ailədəki təlim-tərbiyənin nəticəsində formalaşır insanda bu bilgi bazası. Bəziləri digərlərinə nisbətən elmi daha dərindən qavrayır və bu da onun gələcək taleyinə böyük təsir edir. Yəni həyat yolunu elmə-təhsilə sərf edir. Bunun üçün də zamanla çoxlu mütaliə etmək, oxumaq və oxuduqlarını tətbiq etmək lazımdır ki, bu dünyada cahil insan olaraq deyil, bilgili, məlumatlı insan kimi yetişəsən. Çünki insanın düşüncəsi ən etibarlı köməkdir ki, sağlam və rasional düşüncə də müxtəlif kitabları oxumaq və yüksək mədəniyyətə sahib olmaqla yaranır. Jurnalımızın növbəti qəhrəmanı 7-ci sinif şagirdi Həşimova Aysu da həyatını birbaşa biliklə, savadla əlaqələndirmək istəyənlərdəndir.

Həşimova Aysu Amil qızı 30 aprel 2006-cı ildə Bakı şəhərində anadan olub. 2012-ci ildə 8-ci mikrorayonda yerləşən 248 nömrəli tam orta məktəbin birinci sinfinə qədəm qoyub. Ibtidai sinifi bu məktəbdə bitirən Aysu 2016-cı ildən Füzuli rayonu 1 saylı tam orta məktəbində 5-ci sinifi oxumağa davam edib. İbtidai sinif müəllimi Xuraman Səfərova olub. Aysunun ibtidai sinifdə əla oxumasın da, dərslərinə, təhsilinə məsuliyyətlə yanaşmasında Xuraman müəlliminin bilavasitə köməyi olub. Artıq 7-ci sinifdə oxuyan Aysu bu ənənəni hələ də davam etdirir və məqsədi olan orta məktəbi əla qiymətlərlə başa vurub ali məktəb tələbəsi olmaq arzusu istiqamətində inamla irəliləyir. O, gələcəkdə jurnalist olmaq istəyir. Çünki jurnalist olub cəmiyyəti, xalqı narahat edən, maraqlandıran problem və mövzulardan yazmaq, sujetlər hazırlamaq istəyir. Yəni xalqın görən gözü, eşidən qulağı, etiraf edəcək səsi olmaq üçün bu sənəti özünə tam uyğun bilir. Özü də çox bacarıqlı və aktiv şagirdlərdəndir. Oxuduğu məktəbin bütün tədbirlərində aparıcılıq edən Aysu gələcəkdə, həm də teleaparıcı olmağı da arzu edir. Aysu dərslərinə çox ciddi yanaşır və elə bir vaxt olmayıb ki, zəif qiymət almış olsun. Məktəb rəhbərliyi Aysunun belə fəallığını nəzərə alaraq 2014-2015-ci tədris ilini müvəffəqiyyətlə bitirdiyinə görə "Təşəkkürnamə" ilə, 2015-2016-cı ildə "Diplom"la, 2017-2018-ci tədris ilini də təkrar əla qiymətlərlə başa vurduğu üçün "Fəxri Fərman"la təltif olunub. Bilik və bacarığı nəticəsində müəllimlərinin də sevimli şagirdi adını alıb. Həm sinif rəhbəri olan, həm də Azərbaycan dilini tədris edən Atlas müəllim Aysunun sevimli müəllimidir. Doğma ana dilinə olan sevgisi onun sayəsində daha da artıb və bağlanıb. Aysu ona dərs deyən bütün müəllimləri özünə əziz bilir. Axı bilir ki, əldə etdiyi nailiyyətlər ona dərs deyən Xuraman, Atlas, Sveta, Firuzə və digər müəllimlərin zəhmətinin bəhrəsidir. Aysu valideynlərinin də onun üçün çəkdiyi zəhməti yüksək dəyərləndirir. Bilir ki, indi və gələcəkdə hansısa bir zirvəyə çatarsa məhz elə valideynlərinin əməyi nəticəsində bu mümkünləşəcək. Doğrudur, Aysu çox çalışqan şagirtdir, hər zaman elmi, təhsili hər şeydən üstün tutur. Həyatının xilasını yüksək təhsildə görür.

Aysu yaxşı oxumaqla yanaşı, həm gözəl rəqs eləməyi, həm də yaxşı rəsm çəkməyi bacarır. O qardaşı ilə birlikdə bir müddət rəqs dərnəyinə gedib. Asudə zamanlarında rəqs edir, maraqlı rəsmlər çəkir. Əslində özünü inkişaf etdirməyin ən yaxşı yollarından biri və üstünlüyüdür əlavə məşğələlərin olması. Bu onun gələcəyinə müsbət təsir edir.

Valideynlərinin ilki olan Aysu ailənin sevinc payı hesab olunur. Onun uğuru valideynlərini fərəhləndirir. Aysu da daim öz üzərində çalışıb yüksək nailiyyətlər əldə edəcəyinə qərar verib ki, qoy ailəsi, doğmaları onunla bir ömür fəxr etsin.

Ailədə 4 nəfərdirlər. Atası Həşimov Amil, 1982-ci ildə Cəbrayıl rayonunun Böyük Mərcanlı kənində anadan olub, dizayner işləyir. Anası Qarayeva Leyla 1984-cü ildə Cəbrayıl rayonunu Qışlaq kəndində anadan olub. Şuşa Mədəni Maarif Texnikumunun ibtidai sinif müəllimliyini bitirib. Hazırda işləmir. Qardaşı Həşimov Amin 2008-ci ildə Bakıda anadan olub. 5-ci sinifdə oxuyur.

Aysuya jurnalımızın adından uğurlar diləyir, elm yolunda çıraq kimi yanmağı, iti qələmi ilə tanınan bir jurnalist olmağı arzu edirik.



# Hümbətov Orxan






**"Ancaq elm bəşəriyyəti həqiqətə, ədalətə və xoşbəxtliyə apara bilər"**

***(EMİL ZOLYA)***

Avropaya inteqrasiya etdiyimiz bir dövrdə, təhsildəki yeniliklərimizi Avropada artıq tədqiq olunmuş sistemlərdən götürüb dövlətimizdə bunu həyata keçirməyə çalışırıq. Təhsildə yeniliyimiz, baloniya sisteminə keçməyimizlə əlaqədardır ki, son 10 ildə bu istiqamətdə müəyyən dəyişikliklər baş verdi. Ancaq təhsil sisteminin tam yenilənməsi və müasir standartlara cavab verməsi vacib şərtdir ki, parlaq gələcəyimizin olması naminə keyfiyyətli ali təhsilli savadlı gənclər yetişdirilsin. Bunun üçün gənclik sağlam mühit və əmin əllərdə inkişaf etdirilməli, təhsilinə diqqət ayrılmalı və gələcəyi naminə sağlam qərarlar verilməli, münbit şərait yaradılmalıdır. Gələcəyinin parlaq olması üçün çalışan, tərbiyəsi və davranışı ilə sinifdəki digər şagirdlərdən fərqlənən məktəblilərimizdən biri də Orxandır ki, belə bacarıqlı və tərbiyəli şagirdlər jurnalımızın sevimli qəhrəmanları olmaqla həm tanınır, həm tanıdılır.

Hümbətov Orxan Novruz oğlu 2007-ci ildə Bərdə şəhərində dünyaya göz açmışdır. O, 2013-cü ildə Ağdam rayonu 38 saylı tam orta məktəbinin 1-ci sinfinə getməklə ilk təhsil həyatın başlamışdır. Hal-hazırda o, həmin məktəbin 6-cı sinif şagirdidir.

Orxan sinifdə öz tərbiyəsi, davranışı, yaxşı oxumağı ilə digər yoldaşlarından geri qalmır. Əksinə dərslərini yaxşı oxuyub mənimsəməklə seçilən nümunəvi şagirdlərdəndir. Orxan balanın ən çox sevdiyi dərslər riyaziyyat və azərbaycan tarixi dərsləridir.

Məmmədova Sevinc və Məhərəmmova Vəsilə müəllimlərinin də yeri balaca balamızın qəlbində başqadır. Orxan Hümbətov dərslərində uğur qazandığı kimi dərsdən kənar işlərdə də öz fəallığını göstərir. O, idmanın cüdo üzrə yarışlarında iştirak edərək 3-cü yerə çıxmışdır.

Orxan asudə vaxtlarında rəsm çəkməklə məşğul olur. Bu sənətlə məşğul olmaq onu mənən zənginləşdirir, ruhən sakitləşdirir. Həm də bədii təxəyyülünü artırır. Orxanın arxa - dayağı həmişə ailəsi, doğmalarıdır. Onlar da onun gələcəyini parlaq və uğurlu görmək istəyirlər və bunun üçün əllərindən gələni əsirgəmirlər.

Orxanın ailəsi 5 nəfərdən ibarətdir. Atası Hümbətov Novruz Telman oğlu bənnadır. Halal əl zəhməti ilə ailəsini, övladlarını saxlayır. Anası Hümbətova Samirə Arif qızı evdar qadındır. Bir bacısı və bir qardaşı var. Qardaşı Hümbətov Fuad Novruz oğlu 6 -cı sinif şagirdidir, balaca bacısı Hümbətova Əsmər Novruz qızı evin son beşiyidir.

Redaksiyamızın rəhbərliyi və işçi heyəti adından Orxanı təbrik edir, ona həyatda müvəfəqiyyətlər arzu edirik. Uğurları bol, arzuları çin olsun.

# HƏSƏNOV NİCAT






**"Bağlı bir qapıya açar axtarsan**
**Ancaq alimlərdə axtar, taparsan**
***(Nizami Gəncəvi)***

Ən qədim zamanlardan müasir dövrə qədər nəzər salsaq, görərik ki, insanlar öz bilikləri ilə nələrə qadir ola biliblər. Deməli olar ki, həyatda hər bir güc elmin qarşısında aciz qalır. İnsan elmi zəkasının sayəsində istənilən nəticəni əldə edə bilir. Bilik bir gücdür. Elm öyrənmək böyük bir zəhmət tələb edir. Amma bu zəhmətə qatlaşanlar elmin gücünü mütləq görür. Jurnalımızın növbəti qəhrəmanlarından olan Həsənov Nicat da bu zəhmətin bəhrəsini gələcəkdə elə məhz elmin sayəsində görəcəyinə cox əmindir.

Həsənov Nicat Allahverdi oğlu 12 iyun 2007-ci ildə Bakı şəhərində anadan olub. 2013-cü ildə Füzuli rayon 1 saylı tam orta məktəbinin 1-ci sinifinə yollanan Nicat hazırda elə həmin məktəbin 6-cı sinifində təhsilini davam etdirməkdədir.

İbtidai sinif müəllimi Nigar Muradovanın ən sevimli şagirdlərindən biri olan Nicat Həsənov müəlliminin verdiyi bütün tapşırıqlarını vaxtlı -vaxtında hazırlayan və sinifdə özünü nümunəvi şagird olaraq aparan nümunəvi yetirmələrindən olub. İbtidai sinfi əla qiymətlərlə başa vuran Nicat 5-ci və 6-cı siniflərdə də özünü doğruldaraq əlaçı şagird mövqeyini qoruyub saxlaya bilib. Nicat oxuduğu 6 il müddətində dərslərinə məsuliyyətli yanaşdığı üçün daim yüksək nəticələr əldə edərək valideynlərinin və müəllimlərinin sevincinə səbəb olub. Belə ki, onun hər zaman əla qiymətlər alması ilə yanaşı məktəbin əlamətdar tədbirlərində daim uğurlu çıxışları olub. Məktəbin fəal şagirdləri sırasında gedən Nicat müəllimləri tərəfindən xüsusi hörmətə layiqdir. O, bütün fənlərə çox maraq göstərir və hər bir fənn müəllimi Nicatdan çox razı qalır. Nicatın isə ona dərs deyən hər bir müəllimə böyük hörməti və sevgisi var. Amma Nicatın qəlbində xüsusi yer tutan həm sinif rəhbəri, həm də ingilis dilini tədris edən Şəhla, riyaziyyat fənnini tədris edən Vüsalə və fizika fənnini tədris edən Sveta adlı müəllimləridir.

Nailiyyətlərə gəldikdə isə, bir çox uğurlara imza atan Nicat bunların axarlı davam edəcəyini qeyd etdi. Məlum oldu ki, Nicat 2013-2014, 2014-2015 və 2017-2018-ci tədris illərini əla qiymətlərlə başa vurduğu üçün "Fəxri Fərman"larla təltif olunub.

Nicatın İngilis dilinə marağı yüksək olduğundan ingiliscə sərbəst nağıllar oxuyur. Oxuduğu bir neçə maraqlı nağıl kitabları ilə bizi də tanış etdi. O deyir ki, bu dildə nağıl oxumaqla həm dili rahat mənimsəyir, həm də nağıl dünyası ilə daha yaxından tanış olur. Asudə zamanının ən sevimli məşğuliyyətidir bu.

Nicat həm də idmanla yaxından məşğul olur ki, burada da kiçik yaşında böyük nailiyyətlər qazanıb. Deməli, Azərbaycan Respublikası Kyokuşinkaykan Karate Federasiyasının azyaşlı idmançısı hesab olunan Həsənov Nicat 27 may 2018-ci il tarixində Azərbaycan Kyokuşinkaykan Karate və Ciyutadio Federasiyasının "Azərbaycan Xalq Cumhuriyyətinin 100 illiyi"nə həsr olunmuş Kyokuşinkaykan Karate idman növü üzrə Respublika turnirində 50 kq çəkidə II yerə, 18 avqust 2018-ci il tarixində Bakı Şəhəri Gənclər və İdman baş idarəsinin " Dostlar görüşü " nə həsr olunmuş yarışında III yerə, Hacıqabul rayonunda 19 yanvar 2019-cu il tarixində "20 Yanvar Şəhidləri"nin xatirəsinə həsr olunmuş "CIYUTAİDO" idman növü üzrə Yeniyetmə və Gənclər arasında Respublika turnirində III yerə layiq görülərək "Diplomlar" və medallarla təltif olunub. O, 20 may 2018-ci il və 5 avqust 2018-ci ildə ixtisaslaşma imtahanında göstərdiyi dərəcə dəyərləndirilərək Karate Federasiyasının texniki komitəsi tərəfindən 8 kyu ilə "Göy", 9 kyu il "Narıncı" kəmər, və "Sertifikat"la təltif olunub.

Nicat üç bacının yeganə qardaşıdır. Valideyinləri və bacıları Nicatı çox istəyir və onunla fəxr edirlər.

1982-ci il təvəllüdlü atası Həsənov Allahverdi Baris oğlu, sürücüdür. 1984- cü il təvəllüdlü anası Eminova İrina Ramiz qızı evdar xanımdır. Bacıları Aysel 4-cü sinifdə oxuyur Fatimə və Minayə hər ikisi də 4 yaşındadırlar.

Biz də jurnalımızın kollektivi adından Nicata uğurlar diləyir və gələcəyinin parlaq olmasını arzu edirik. Qoy, elm-bilik, idman uğurları daim onun yardımçısı, xilaskarı olsun!



# Həsənova Mehpara









**"Cəmiyyət həmişə cavan qalır, elm isə qocalır"**
***(Delbryuk)***

Elm ağlın çırağıdır. Elm elə bir xəzinədir ki, nə qədər sərf etsən bir o qədər artar. Elm öz sahibinə böyük zinətdir deyimi də səbəbsiz yerə deyilməyib. Elmsiz adam meyvəsiz ağac kimidir. Necə ki, bar verməyən ağac faydasız hesab olunur eləcə də insan. Gərək vaxtında yaxşı oxuyub bir peşə, sənət sahibi olasan ki, həm öz yerini cəmiyyətdə tuta, həm də məxsus olduğun cəmiyyətə, vətəndaşı olduğun ölkəyə xeyirin, faydan dəyə. Dünya elmində yaşanan inkişaf və tərəqqi bəşəriyyətin inkişafına, təkmilləşməsinə xidmət edir. Gərək bizim ölkənin gəncliyi, gələcəyi bu inkişafdan geri qalmaya. Bu ölkənin inkişafı və gələcəyi üçün çox vacib faktdır. Çünki elmli kadrlar, təhsilli beyinlər sayəsində bir ölkənin iqtisadiyyatı, siyasəti, sosial durumu normal və yüksək səviyyədə olur. Bu gün elmi öyrənməyə çalışan istedadlı və bacarıqlı gənclərimiz var və olması yaxşı göstəricidir. Bu istedadlı qabiliyyətli və savadlı şagirdlərimizdən biri də Mehparədir ki, növbəti yazımız onun haqqındadır.

Həsənova Mehparə Rasim qızı 2009-cu il 19 avqust tarixində Rusiyanın Novasibirski şəhərində dünyaya gəlmişdir. Özü yad ölkədə doğulsa da,ancaq ilk təhsil həyatına doğma diyarında başlayıb. Belə ki, O, 2016-cı ilin tədris ilində Ağdam rayonu 81 saylı tam orta məktəbin 1-ci sinfinə gedib. Hal- hazırda həmin məktəbin 3-cü sinif şagirdidir. Dərslərini vaxtı-vaxtında oxuyur, hazırlaşır. Xüsusilə keçdiyi fənlər arasında ən bəyəndiyi riyaziyyat , Azərbaycan dili və fiziki tərbiyədir. Mehparə sinifdəki əlaçı şagirdlərdən biridir. Bütün dərslərinə diqqətlə yanaşır və müəllimlərinin ona tədris etdiyi dərslərə həvəslə yanaşır. Onun gələcəyi ilə bağlı böyük arzu və gözləntiləri var. O, gələcəkdə hüquqşünas olmaq arzusundadır. Ona görə qarşısına qoyduğu məqsədə çatmaq üçün indidən dərslərinə məsuliyyətlə yanaşan oxumağın onun gələcəyi, seçəcəyi sənəti üçün çox vacib olduğunu dərk edir. Hətta Mehparənin bir çox uğur və nailiyyətləri var ki, artıq bu uğur onun çəkdiyi zəhmətin bəhrəsi olaraq gözəl nəticədir. Belə ki, Mehparə balamız məktəb daxilində keçirilən bilik yarışlarında iştirak edərək 2-ci yerə çıxaraq öz bilik və bacarıqları ilə seçilib həmyaşıdlarından. O, boş vaxtlarını da çox səmərəli keçirir. Dərsdən boş qalan zamanlarında kitab oxumağı sevir, çoxlu mütaliə edir. Çünki bu mütaliə onun uşaq dünyasını zənginləşdirir və nitqini təkmilləşdirir. Ona hər zaman arzu və istəklərini reallaşdırmaqda yardımçı olan ailəsi ondan öz dəstəyini əsirgəməməklə yanaşı onunla fəxr edirlər. Onlar inanırlar ki, Mehparə onların başını daim uca tutacaq və öz layiqli yerini cəmiyyətdə tutacaq. O qədər də böyük olmayan ailəsi 4 nəfərdən ibarətdir.

Atası Həsənov Rasim Məhərrəmli oğlu, anası Zahirova Nuranə Malik qızı tibb bacısıdır. Qardaşı Həsənov Asim Rasim oğlu 5-ci sinif şagirdidir. Bacısından böyük olan Asim də dərslərində əlaçıdır.

Redaksiya heyətimiz adından Mehparəyə biz də uğur dolu bir gələcək arzulayaraq ona gələcək həyatında və işlərində uğurlar diləyirik. Daim müəllim və valideynlərinin fəxri olasan.



# Heydərli Əli



**”Kim ki, elmi öyrənib tətbiq etmir, yeri əkib becərən, amma məhsulundan istifadə etməyən adama bənzəyir”**
**(Nəvai)**

Ölkə ərazisində məktəblərin açılması, il ərzində neçə- neçə məktəblərin əsaslı olaraq yenidən təmir və bərpa işlərinin aparılması, bu gün dövlətin təhsilə diqqətindən və qayğısından xəbər verir. Lakin inkişaf sadəcə səthi, üzdən deyil, dərindən keyfiyyət baxımından, təhsilin tədrisi istiqamətində aparılması şərtdir.

Bu gün təhsilimizin yüksək keyfiyyətlərindən danışdığımız kimi, nöqsanlarından, orada baş verən qanunsuz hərəkətlərdən, məktəblərdə olan qanunsuzluqlardan, müəllim və şagirdlərin bölgə məmurları tərəfindən şərtsiz incidilməsini də qeyd etməliyik və buna görə də təhsil sahəsində baş verən neqativlərin aradan qaldırılmasında səylə çalışmalıyıq. Ulu öndərin dediyi kimi bizlər məktəbdə cəmiyyətə sağlam, savadlı, təhsilli gənclər hazırlamalıyıq. Belə gəncləri yetişdirmək boya-başa çatdırmaq, bilik, təlim, tərbiyə vermək müəllim vəzifəsini yerinə yetirən pedaqoqların, eləcə də gəncə cavabdeh olan cəmiyyətin, vətəndaşına sahib çıxmalı olan dövlətin borcudur. Naziri də, prezidenti də, həkimi, alimi, fəhləni də yetişdirən müəllimdir. Bu yazı da isə gələcəyini, vətənini qorumağa həsr etməyi planlaşdıran Heydərli Əlidən danışacağıq. Heydərli Əli Vasif oğlu 2011-ci ilin 4 sentyabrında Sabirabad rayonunda dünyaya göz açmışdır. O, 2017-ci ildə Sabirabad rayon M.Müşfiq adına 4 saylı tam orta məktəbin 1-ci sinfinə getmişdir.- Hal hazırda həmin məktəbin 2-ci sinif şagirdidir. Sinifdə öz qabiliyyəti, bacarığı,tərbiyəsi və oxumağı ilə digər şagird yoldaşlarından fərqlənir. Sinifdə əlaçı şagirdlərdən biridir. Əli balamız çalışqanlığı, tərbiyəsi ilə bütün uşaqlara nümunədir. Onun ən sevimli fənni Azərbaycan dili və riyaziyyatdır. Bu o demək deyildir ki, Əli digər fənn dərslərini sevmir. O, həmçinin şahmata, təsviri incəsənətə də maraq göstərir. Ramilə və Gülnar adlı müəllimlər isə Əliyə bu fənləri sevdirən ən sevimli müəllimləridir və bununla yanaşı bu balamız gələcəkdə polis olmaq arzusundadır. Əli boş vaxtlarında kitab oxumağı və rəsm çəkməyi xoşlayır.

Əlini ailəsi 4 nəfərdən ibarətdir; Atası, anası qardaşı və özü. Atası Heydərov Vasif Əlişirin oğlu işsizdir. Anası Rəhimova Gülnar Vidadi qızı işsizdir. Qardaşı Heydərov Mustafa Vasif oğlu məktəbəqədər hazırlıq qrupunda oxuyur.

Redaksiya heyyəti adından Əlini təbrik edir, dərslərində müvəffəqiyyətlər arzulayırıq. Səsin daim yüksəklərdən gəlsin. Uğurların bol olsun.



# KÖNÜL KƏRİMZADƏ





**“Ləzzətlə yemədiyin yemək usandırıcı olduğu kimi, həvəslə məşğul olmadığın elm də hafizəni korlayır, o udduğunu mənimsəmək iqtidarında olmur”**
***(Leonardo Da Vinçi)***

Müasir insan elmin qanadlarında elə uzaqlara uçmuşdur ki, özündən ayrı düşsə də yenilik və texnoloji inkişafdan ayrı düşməmişdir. Bəli, biz həmin yüksələn inkişaf xətti ilə daha uzaq üfüqlərə yol alan həmin inkişaf əsrinin insanlarıyıq. Yaşadığımız 21-ci əsr isə bizdən ancaq elm və ağıl tələb edir. Çünki qüvvət və uğur elmdədir, ağıl isə elmin tətbiqində ortaya çıxarılan yeniliklərin ümumi yaradıcısı. Elmli və ağıllı şagirdlərin axtarışı ilə jurnalın növbəti müsahibi Könül Kərimzadədir. O 2-ci sinif şagirdi olmasına baxmayaraq çalışır ki, dərslərində və sinifdə aktiv olsun.

Könül Kərimzadə Şahin qızı 2011-ci il 31 avqust ölkəmizin isti guşələrindən olan Sabirabad rayonunun Cavad kəndində anadan olub. Bu ağıllı bala 2017-ci ilin tədris ilindən etibarən məktəbə qədəm qoyub. O, hal-hazırda Teymur Məmmədov adına 1 saylı tam orta məktəbinin 2-ci sinif şagirdidir. Yaşı az olmağına baxmayaraq, Könül artıq məktəbdaxili yarışlarda iştirak etməyə başlayıb. Dərslərinə həvəslə hazırlaşan bu gözəl qızın ən çox sevdiyi dərslər isə ana dili və riyaziyyat fənnidir. O,çalışqan və savadlı bir şagirddir. Müəllimlərinin zəhmətkeş, qayğıkeş olduğunu vurğulayan Könül gələcəkdə də elə məhz bu peşəyə yiyələnmək istədiyini bildirib. Müəllim cəmiyyət quruculuğunun mənəvi, əvəzolunmaz memarıdır. Müəllim ömrünü bir kainata da bənzətmək olar. Ömrünü, beynini, ruhunu elmi-əxlaqi biliklərlə qidalandırdığı, əlinə qələm verdiyi şagirdləri isə bu kainatın kiçik zərrələridir. Axı O da öz müəllimləri kimi bir çox şagirdə dərs deyib savadlı, zehinli gənclər yetişdirmək arzusundadır. Bu xəyalını gerçəkləşdirmək üçün o, boş vaxtlarında durmadan yeni kitablar oxuyur, həmçinin rus dilini öyrənir.

Könülün ailəsi 4 nəfərdən ibarətdir. Atası Kərimov Şahin Yavər oğlu, anası Kərimov Səadət Taleh qızıdır. Onlar qızlarına dərslərində daim kömək olduqlarını bildirib. arxa-dayaq olurlar. Könülün Kərimov Yavər adlı az yaşlı bir qardaşı var. Könül sonda əlavə edib ki, uğur qazanmaq və ailəsini qürurlandırmaq üçün daim əlindən gələni əsirgəmiyəcək.

Biz də Könül balaya dərslərində və gələcək həyatında nailiyyətlər arzulayırıq . Uğuru bol, yolu açıq olsun.

# KƏRİMLİ SÜRAYƏ







**"Elmsiz praktikaya aludə olan adam gəmini sükansız və kompassız idarə etmək istəyən kapitana bənzər; o, hara üzdüyünü özü də bilməz"**

**(Leonardo da Vinçi)**

Bilikli insan qiymətli sayılır. Elm insanın baş ucalığıdır.Savadlı insanlar hər kəs tərəfindən sevilir və hörmətlə qarşılanır.İstedad və qabiliyyətli olanlar elmdə inkişaf edib ali mərtəbəyə çatırlar. İnsanlar bir-birindən bilik, savad qabiliyyətinə görə fərqlənirlər. Hər bir şəxs bilik öyrənməklə elmin zirvəsinə yüksəlir. Bilik artdıqca ağlın da parlayar və daha hikmətli olarsan.Öyrəndiyinin mənasını anlamaq, onu dərindən dərk etmək, yadda saxlamaq və kamil bilici olmaq lazımdır. Yaddan çıxarmaq lazımdır deyil ki, elm insanın nurudur, insanın bəzəyidir.

Müsahibimiz Kərimli Sürayə Elşən qızı 2008-ci il 29 yanvarda Sabirabad rayon Cavad kəndində dünyaya göz açıb. Bu ağıllı qız 2013-cü ildə ilk dəfə Sabirabad rayon Teymur Məmmədov adına 1 saylı tam orta məktəbində təhsil almağa başlayıb. Hal-hazırda elə həmin məktəbin 5 a sinifində təhsilini davam etdirir. Təsviri incəsənət, texnologiya, ingilis dili, rus dili fənnlərini daha çox sevdiyini və maraqla oxuduğunu bildirən Sürayə bütün fənnlərin vacibliyini dərk edir və gücü çatdığı qədər hamısını oxumağı hədəfləyir. Ən sevdiyi müəllimləri isə Ellada müəllim, Gülnar müəllimə və Fizzə müəllimdir. İncəsənətə, əl işlərinə marağı olan Sürayənin arzuladığı və gələcəkdə yiyələnmək istədiyi peşə isə Dizayner olmaqdır. Məktəbə başladığı ilk gündən etibarən aktivliyi ilə seçilən Sürayə elə hazırda da məktəbin bütün tədbirlərində fəal iştirak etdiyini vurğulayıb. O bildirib ki, novruz bayramı tədbirində əl işlərini nümayiş etdirir və bu sərgi hər kəs tərəfindən maraqla qarşılanır. Sürayə çalışır ki, hər zaman belə müəllimlərinin və sevdiklərinin sevgisini, rəğbətini qazansın. Əl işlərini böyük zəhmət və sevgi ilə hazırlayan bu bacarıqlı qız, boş vaxtlarını elə müxtəlif əl işləri hazırlamaqla keçirir.

Bu mehriban ailə 4 nəfərdən ibarətdir. Atası Elşən bəydir. Anası isə müəllimdir. Onlar övladlarına dərslərində yaxından kömək edir, daha yaxşı təhsil almaları üçün əllərindən gələni əsirgəmirlər. Sürayənin onunla ekiz olan Oktay adlı bir qardaşı var. Onlar eyni sinifdə təhsil alır və dərslərində bir-birlərinə kömək edirlər.

Jurnalımız adından bu gözəl balaya dərslərində nailiyyət, gələcək işlərində və arzuladığı peşədə bol uğur arzulayırıq. Hər zaman sevdiklərinin, müəllimlərinin başını uca eləsin.



# Müseyibova Əzizbəyim




**Nursuz göz kimidir elmsiz ürək,**
**Nadan insanlıqdan uzaqdır gerçək.**

**(Əvhədi Marağayi)**

Müasir dövrümüz sivilizasiya dövrüdür. Bu dövrdə yüksək elmi səviyyə, dərin bilik tələb olunur. Onun üçün də müasir gənclərimizin təhsilə yiyələnmələri vacib şərtlərdəndir. Təhsilin bünövrəsi məktəbdə qoyulur. Müəllimə böyük hörmət olmalıdır.İndiyə qədər həyatımızda keçdiyimiz yol, biliyimiz, elmimiz-hamısı orta məktəbdə aldığımız təhsillə bağlıdır.Biz müəllim qarşısında baş əyməliyik və müəllimə hörmət etməliyik. Çünki bu gün hər birimiz aldığımız elm, savada görə müəllimə borcluyuq. Elmli savadlı, gəncliyimizin olması üçün şagirdlərlə yanaşı müəllimlərimiz, cəmiyyətimiz və dövlətimiz çalışmaldır. Belə çalışqan şagirdlərimizdən biri də Əzizbəyimdir.

Müseyibova Əzizbəyim Əsgər qızı 2004-cü ilin 8 avqustunda Sabirabad rayonunda dünyaya gəlmişdir. O, 2010-cu ildə Mikayıl Müşfiq adına 4 saylı şəhər tam orta məktəbinin 1-ci sinfinə getmişdir. Hal hazırda o həmin məktəbin 9-cu sinif şagirdidir. O dərslərində çalışqan olmağı ilə yanaşı həm də istedadlıdır. Əzizbəyim qızımız rus dili olimpiadasında iştirak edərək sertifikatla təltif edilmiş, həmçinin ingilis dilindən yarışmalarda iştirak edərək diplom almışdır. Gələcəkdə tibb bacısı olmaq arzusundadır. Boş vaxtlarında televizora baxmağı, kitab oxumağı sevir. Rus dili, biologiya , həyat bilgisi onun sevimli fənləridir. Ellada, Zərifə, Xoşbəxt və Hüsniyyə adlı müəllimləri onun üçün ən əziz müəllimləridir.

Ailəsi 4 nəfərdən ibarətdir. Atası Müseyibov Əsgər Kərim oğlu mühafizəçidir.

Anası Müseyibova Əfsanə İmran qızı evdar qadındır. 2001-ci il təvəllüdlü qardaşı Müseyibov Kərim isə Üzeyir Hacıbəyov adına musiqi məktəbində oxuyur.

Elm-təhsil yolu şərəfli olduğu qədər həm də çətindir. Hansı peşəni seçməyindən, hansı sənətin arxasınca getməsindən asılı olmayaraq redaksiya heyətimiz adından Əzizbəyimə gələcək həyatında və işlərində uğurlar arzulayırıq. Daim valideynlərinin fəxri və sevinci olsun, bütün arzu və istəkləri çin olaraq doğmalarını, müəllimlərini sevindirsin.

# MURAD ASLANLI






**”Yaxşı kitab aysberqə oxşayır, onun yeddi-səkkiz hissəsi suyun altında gizlənib”**
**(Ernest Heminquey)**

Həyatda bizim uşaqlardan dəyərli heç bir şeyimiz yoxdur. Uşaqlara da verə biləcəyimiz ən dəyərli miras isə yalnız və yalnız elm və təhsildir. Təhsilə də, kitab oxumağa da elə uşaq yaşlarından başlamaq lazımdır. Uşaqların təfəkkürünü inkişaf etdirmək üçün əlimizdən gələn bütün imkan və fürsətlərdən yararlanıb onaları elm - təhsil yoluna cəlb etməliyik. Ən yaxşı məktəblər, kitablar, müəllimləri arayıb-axtarıb onların təhsilinin yüksək səviyyədə olması üçün çalışmalıyıq. Məqsədimiz gələcəyimizi savadlı nəslə ötürməkdi, ölkənin gələcəyini daha əmin əllərdə, daha inkişaf etmiş formada görməkdir. Bunun üçün oxumaq və oxutdurmaq, öyrənmək və öyrətmək lazımdır. Maarifləndirmək və elmin -təhsilin vacibliyini təbliğ etmək isə bu işdə ən motivasiya gücləndirici bir metoddur. Gəlin sizi jurnalımızın gələcəkdə həkim olmaq istəyən Aslanlı Muradlı adlı savadlı və ağıllı qəhrəmanı ilə tanış edək.

Aslanlı Murad Taleh oğlu 2009-cu ildə Bakı şəhərində anadan olub. 2015-ci ildə 1-ci sinfə Nizami Gəncəvi adına 4 saylı Xankəndi tam orta məktəbinə yollanan Murad hazırda həmin tədris ocağının 4-cü sinif şagirdidir. Murad yaxşı oxuyan və tərbiyyəli, mədəniyyətli bir şagirtdir. Elə buna görə də Günay müəlliminin ən sevimli şagirdlərindən biridir. Murad ilk dəfə oxumağı, yazmağı Günay müəllimdən öyrənib. O, bu gün əlaçı şagird olduğu üçün ilk müəllimi Günay müəllimə və valideynlərinə borclu olduğunu bildirdi. Murad hər bir fənni çox maraqla oxuyur. Amma ən cox maraq göstərdiyi fənn ingilis dilidir. Çünki xarici dilin vacibliyinin fərqindədir. Murad yaxşı oxumağı ilə yanaşı, davranış və təhsil göstəricilərinin yüksək olmasından dolayı nümunəvi şagird kimi məktəbin drektoru Cəmilə Əhmədovanın da xüsusi hörmətini qazanıb. Muradın davranışı, dərslərə göstərdiyi diqqəti, məktəbdə fəallığı Cəmilə müəllimin çox xoşuna gəlir.

Murad bir neçə hazırlıq kurslarına gedərək yüksək nəticələr əldə edib. O, 29 oktyabr 2017-ci il tarixində “Şəfəq” hazırlıq kursları tərəfindən keçirilən “Bilik yarışı”nda yüksək nəticə əldə etdiyi üçün “Diplom”la təltif olunub. Hazırda “Dəyanət” kurslarında hazırlığa gedir. Onun oxumağa böyük həvəsi var. Demək olar ki, bütün günü dərsləri ilə məşğul olur. Asuda saatlarını da mütaliə etməklə keçirdir. Bəzən isə atası ilə birgə getdiyi balıq ovu, babasına bağda kömək etmək onun sevimli məşğuliyyətlərindən biridir. O, həmçinin səyahət etməyi çox sevir və bir neçə dəfə səyahətə gedib. Səyahət zamanı isə olduğu yerlərdə tarixi məkanlar və abidlərə baş çəkməyi unutmur. Çünki səyahət ona bunun üçün lazımdır. Murad gələcəkdə həkim olmaq arzusundadır. Murad istəyir ki, savadlı, adlı-sanlı bir həkim olub, ən tanınmış xəstəxanalarda failiyyət göstərə bilsin və öz peşəsindəki peşəkarlığı ilə ad qazansın Çalışır ki, valideynlərinin onun üçün çəkdiyi zəhməti layiqincə dəyərləndirib elə onların adına layiq övlad olsun. Axı o ziyalı bir ailənin övladıdır və valideynləri onun parlaq gələcəyi naminə xeyrinə çox addımlar atır, dəstəyini əsirgəmir.

Atası Aslanov Taleh Nizami oğlu 316 saylı məktəbdə idman müəllimi , anası Balakişiyeva Vəfa 4 saylı məktəbdə ibtidai sinif müəllimi kimi çalışır. Qardaşı Uğur isə 3-cü sinif şagirdidir.

Ziyalı ailənin övladı olan Murada dərslərində uğur və nailiyyətlər arzulayırıq. Ümüdvarıq ki, gələcəyin ən peşakar həkimlərindən biri məhz Murad olacaq. Ancaq təhsil - elm sahəsindəki əzm və mübarizə ilə yol qət etmək və addımlamaq lazımdır. Murad da bu yolun yolçusudur. Yolu açıq, ömür payı parlaq olsun.



# OKTAY KƏRİMLİ




**”Bütün elmlərin bünövrəsi təhsillə qoyulur”**
***(Əbu Turxan)***

Açılan hər məktəb bir həbsxananın bağlanması deməkdir deyib böyük fransız mütəfəkkiri Vüqtor Hüqo. Həmin təhsil ocaqlarının illərlə yetişdirdiyi nəsillər isə məxsus olduğu ölkənin, dövlətin əsas sərvətidir desək yanılmarıq. Çünki əsas diqqəti, qayğısı insan kapitalına yönələn ölkələri tarix boyu “məğlub” etmək çətin olub. Əksinə zamanla həmin insan kapitalının qurub-yaratması ilə ucalaraq dünyada güclü iqtisadiyyat və siyasətə sahiblənib. Odur ki, elm və təhsillə başlanan uğurlu gələcəyə elə özülündən sağlam dəstək vermək və özündə güclü inam formalaşdırmaq lazımdır. Bilikli və inamlı gələcəyə birgə addımlamaqla jurnalımızın da əsas məqsədi bu istiqamətdəki dəstəyini o gələcəkdən əsirgəməməkdir. Təhsili olmayan bir gənc həm özünə , həm də vətənə heç bir fayda verə bilməz. Gərək gənclərimiz həyatımızın bu çətinliklərinə baxmayaraq təhsillənsinlər. Yəni dövlət məktəblərin, təhsil müəssisələrinin işinə daha çox qayğı, diqqət göstərməlidir. Jurnalımızın işıq üzü görən yeni sayında haqqında bəhs edəcəyimiz qabaqcıl bilikli və bacarıqlılarımızdan biri də Oqtay Kərimlidir.

Oktay Kərimli 2008-ci il 29 yanvar tarixində Sabirabad rayonu Cavad kəndində anadan olub. Oktay 2013-cu ildə elə bu rayonda Teymur Məmmədov adına 1 saylı tam orta məktəbinə yollanıb. Müəllimlərinin sevimlisi olan bu ağıllı bala , hal-hazırda 5a sinifində təhsil alır.Bütün fənləri çox sevən Oktay, riyaziyyat, ədəbiyyat,rus dili fənlərini daha çox sevdiyini əlavə etdi. Ən çox sevdiyi müəllimləri isə Gülnarə müəllim, Fizzə müəllim və Elnur müəllimdir. Həmçinin bütün müəllimlərinin ona daim dəstək durduqlarını və onlara da hörmət etdiyini vurğuladı.Oktay bütün məktəb tədbirlərində həvəslə iştirak edir.Rəqsə qarşı marağının olduğunu deyən Oktay, elə bu marağı səbəbi ilə ,gələcəkdə rəqs müəllimi olmaq arzusundadır. Azərbaycan xalq rəqsləri tariximizlə ayrılmaz surətdə bağlı olub, onun milli xüsusiyyətini, həm də həyat və məişətini özündə əks etdirir. Bu da ölkənin tarixində, mədəniyyətində rəqs sənətinin nə dərəcədə böyük əhəmiyyətə malik olduğunu göstərir. Milli rəqslərimizə xas olan və onu başqa xalqların rəqslərindən fərqləndirən səciyyəvi cəhətlər sözsüz ki var. Azərbaycanının tanınmış rəqqaslarından olan Əminə Dilbazi, Afaq Məlikova, Böyükağa Məmmədov və başqaları öz ifalarında milli elementləri qoruyub saxlamaqla milli rəqsi xeyli inkişaf etdirə biliblər. Bu rəqslər vasitəsilə hər kəs öz daxilində mənini tapır, xalqına məxsus olan mənəvi-əxlaqi dəyərləri dərk edə bilər.

Boş zamanlarında daha yaxşı rəqs edə bilmək üçün müxtəlif rəqslər öyrənməyə çalışır.

Oktayın ailəsi 4 nəfərdən ibarətdir. Atası və anası daim övladlarına dəstək olduqlarını bildirib. Oktayın Süraye adlı gözəl bir bacısı var.Onlar həm ekiz ,həm də eyni sinifdə oxuyurlar.O , sonda ailəsini çox sevdiyini deyərək, dərslərinə və gələcəkdə sahib olmaq istədiyi peşə üçün çox çalışdığını deyib.

Kollektimiz adından Oktaya həyatında bol uğur və dərslərində müvəffəqiyyətlər arzulayırıq.

# Nuriyeva Rəksanə



**"Elm adamlarının qiymətini bilməyən, onlara layiq olduqları mükafatı verməyən ölkələr inkişaf edəcəklərinə ümid bəsləməsinlər"**

***(Volter)***

Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən asılı olmayaraq bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq. Hər bir insan hansı yaşda olursa olsun, yiyələndiyi peşədən asılı olmayaraq ilk növbədə, onu bu səviyyəyə çatdırmış olan müəllimə borclu olmalıdır. Müəllim hər kəs üçün valideyndən sonra yeganə insandır ki, istər şagird, istərsə də tələbəlik dövründə narahat olan, qeydinə qalan və hər zaman dəstəkləyərək elmin zirvələrində olmağın arzu edir. Bu səbəbdən bütün uşaqların böyük əksəriyyətinin ən birinci arzuladıqları peşə müəllim olmaqdır. Bu arzunun sahiblərinin biri haqqında söz edək. Bu gözəl arzunun sahibi Rəksanə qızımızıdır. Gəlin, Rəksanə ilə daha yaxından tanış olaq.

Nuriyeva Rəksanə İlham qızı 2005-ci ilin 29 yanvarında Sabirabad rayonu Əlicanlı kəndində anadan olmuşdur. O, 2012-ci ildə Sabirabad rayon Niyazi İsmayılova adına Əlicanlı tam orta məktəbin 1-ci sinfinə getmişdir. Hal-hazırda həmin məktəbin 7-ci sinifində təhsil alır. Rəksanənin tarix fənninə olan marağı sayəsində yoldaşlarından fərqlənərəq, tarix fənnindən fəxri fərman ilə təltif edilmişdir. Məhz həmin bu marağı onda oyadan Rəksanənin ən çox sevdiyi müəllimi məktəbin tarix müəllimi Aynur müəllimdir. Rəksanə boş vaxtlarında rəsm çəkməklə məşğul olur. Maraqlı və gözəl rəsmlər çəkən Rəksanənin ən böyük arzusu gələcəkdə rəsm müəllimi olmaqdır.

Rəksanənin ailəsi 6 nəfərdən ibarətdir. Atası Nuriyev İlham Məməti oğlu çilingərdir. Anası Nuriyeva Səbinə Nəsrəddin qızı evdar xanımdır. Böyük bacısı İlahə ailəlidir. Digər bacısı Nuriyeva Nuranə isə tibb bacısıdır. Kiçik qardaşı Nurizadə Hüseyn isə 5 yaşındadır.

Redaksiyamız adından Rəksanəni təbrik edir ona dərslərində uğurlar arzulayırıq. Uğurların bol olsun və daim onun uğurları ilə sevənləri fəxr etsin.



# Quliyeva Əminə





**"Dünyanın hər yerində həqiqi hökmdar olan elm vaxtaşırı öz paytaxtını dəyişmiş, gah Şərqdən Qərbə, gah da Qərbdən Şərqə keçmişdir"**

***(Cəlaləddin Əfqani)***

Elmin mənbəyi evimizdən, bağçadan və məktəbdən başlanır. Elm öyrənmək böyük zəhmət, qabiliyyət və zaman tələb edir. Bu işdə bilikli, dünyagörüşlü, milli dəyərlərimizi ifadə edən müasir texnikaya, onun nailiyyətlərinə yiyələnmiş vətənpərvər, fədakar müəllimlərimiz böyük ehtiyac var.

İndi dünya ölkələrinə inteqrasiyanın vacib olduğu, intellekt savaşının getdiyi zamandır.Torpaqlarımızın işğaldan azad edilməsi millətimizin azad, firavan yaşaması üçün bütün bilik və bacarıqlara yiyələnən vətəndaşlarımıza böyük ehtiyac vardır. Çünki elmi biliklərə malik bir ölkənin gücü, qüdrəti böyük olar.Bilikdən güclü bir qüvvə yoxdur, biliklə silahlanan insan məğlubedilməzdir. Dahi şairimiz N.Gəncəvi alimin rütbəsinin ən uca rütbə olduğunu belə ifadə etmişdir.

Qüvvət elmdədir, başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz!
Hər uca rütbədən biliniz fəqət,
Alimin rütbəsi ucadır əlbət!

Oxuyub savadlı, insan olmaq gələcəyini daha parlaq qurmaq üçün çalışan şagirdlərimizdən biri də Əminədir. Əminə də qardaşı kimi jurnalımızın seçilən və nümunəvi şagirdləri siyahısına düşənlərdəndir. Quliyeva Əminə Samir qızı 2010-cu ilin yanvarın 12-də Sabirabad şəhərində anadan olmuşdur. O, 2016-cı ildə Mikayıl Müşfiq adına 4 saylı tam orta məktəbin 1-ci sinfinə getmişdir. Hal-hazırda həmin məktəbin 3-cü sinif şagirdidir. Həyat da uğur qazanmağa çalışan bu qızımız dərslərində fəal olduğu kimi, digər sahələrdə də istedada malikdir. Dərslərində uğur qazandığı üçün həmişə məktəb birincisi olmuşdur. Bununla yanaşı o çox gözəl şahmat oynamağı bacarır və şahmat çempionudur. O, həmçinin pianino da ifa etməyi də bacarır. O, imtahanlarda yüksək nəticələr qazandığı üçün dəfələrlə diplom və tərifnamələrlə təltif edilmişdir. Bu balaca balanın ən böyük istəyi gələcəkdə həkim olmaqdır. Əminə ən sevimli müəllimləri İradə, Sona və Minarə müəllimləridir. İngilis dili və riyaziyyat dərslərinə isə marağı daha çoxdur. Asudə vaxtlarını rəsm çəkməklə və şahmat oynamaqla keçirir.

Əminənin ailəsi 4 nəfərdən ibarətdir. Atası Quliyev Samir qida sənayesində operator işləyir. Anası Quliyeva Nahidə evdar xanımdır. Qardaşı Quluzadə Şəmsəddin 2ci sinif şagirdidir.

Redaksiyamız adında Əminəni təbrik edir. Ona gələcək həyatında uğurlar arzulayırıq. Hər zaman ata ananın fəxri və sevinci olsun.

# Quluzada Şamsaddin





**Oxuyun, deyir oxuyun. Çünki mürəkkəbin axmadığı yerdə qan axır.**

**(Əli Şəriəti)**

Bir xalq yalnız savadlı cəmiyyəti, inkişaf etmiş elmi ilə qürur duya bilər. Yalnız savadlı cəmiyyətlə irəli getmək, uğurlara nail olmaq, ölkəni tanıtmaq mümkündür. Elmin vacibliyini hələ qədim zamanlardan dərk ediblər. Ta qədim zamanlardan elmdə nailiyyətlər əldə etmək üçün çalışıblar. Təbiəti öyrənib, bununla cəmiyyəti məlumatlandırmağa səy göstəriblər.

Qədim zamanlara nisbətən, elmin inkişafı müasir şəraitdə daha asandır. Elmi nailiyyətlər nəticəsində kompüter erasına qədəm qoymuşuq. Azərbaycanda da bu kimi texnoloji yeniliklərin tətbiqi təhsilin inkişafına gətirib çıxarır. Məktəblər yeni texniki avadanlıqlarla təchiz olunur. Bunlar hamısı dövlətin müəyyən etdiyi strategiyaya əsasən həyata keçirilir.

Dediyim kimi, savadsız cəmiyyət heç kimə lazım deyil. Hazırda da dövlət savadlı kadrların hesabına iqtisadi, hərbi və elm sahəsində irəliləməyi qarşıya məqsəd qoyub. Yalnız savadlı, təhsilli gənclərin hesabına bu sahələrdə uğurlar qazanmaq, beynəlxalq arenada Azərbaycanı layiqincə təmsil etmək mümkündür. Gələcəkdə savadlı gənclik üçün çalışan, oxumağı ilə fərqlənən Şəmsəddin balamızdan bu yazıda bəhs edəcəyik.

Quluzadə Şəmsəddin Samir 2011-ci ilin 15 aprelində Sabirabad şəhərində anadan olmuşdur. O, 2017 ci ildə Mikayıl Müşfiq adına 4 saylı tam orta məktəbin 1-ci sinfinə getmişdir. Hal-hazırda həmin məktəbin 2-ci sinif şagirdidir. Ən böyük arzusu gələcəkdə ya əsgər ya da polis olub vətəninə layiqli xidmət etməkdir. Bu arzusuna çatmaq üçün çox çalışıb, dərslərini məsuliyyətlə hazırlayır.Bu balaca balamız dərs əlaçısıdır. Məktəbdə keçirilən monitorinq imtahanlarında yüksək nailiyyətlər qazanmış və diplomlarla təltif olunmuşdur. Həyat bilgisi, Azərbaycan dili, ingilis-dili, rəsm, şahmat fənlərini daha çox sevir. Dilşad və Minarə müəllimə bu balaca balanın sevimli müəllimələrindəndir. Boş vaxtlarında test işləyir, pianino, qarmon ifa edir və digər faydalı işlərlə məşğul olur.

Şəmsəddinin ailəsi 4 nəfərdən ibarətdir. Atası Quliyev Samir qida sənayesində operator işçisidir. Anası Quliyeva Nahidə evdar xanımdır. Bacısı Quliyeva Əminə Samir qızı 3-cü sinif şagirdidir. Şəmsəddinin valideynləri hər iki övladının dərslərinin uğurlarına görə xalası Ramiyyə müəllimə xüsusi təşəkkürlərini bildirirlər. Onlar hər zaman övladlarını dəstəkləyir və dərsləri ilə yaxından məşğul olurlar.

Redaksiyamız heyəti adından Şəmsəddin balanı təbrik edir, ona dərslərində müvəfəqiyyətlər arzulayarıq. Qoy məşğul olduğu sahələrdə əldə etdiyi, edəcəyi uğurları ilə həmişə sevinc, fəxarət sahibi olsun.



# Rüstəmova Dəniz







**"Alimlərin qayğısı altında olan camaat, atasının qucağındakı uşaq kimidir"**

***(Rabiə Abdul)***

Elm ağlın çırağıdır. Elm elə bir xəzinədir ki, nə qədər sərf etsən, mənimsəsən bir o qədər artar. Elm öz sahibinə böyük zinətdir. Elmsiz adam meyvəsiz ağac kimi müdrik deyimlər,kəlamlar boş yerə söylənməyib, deyilməyib. Elm insan həyatının stimulverici, hərəkətverici qüvvəsi və əsas qayəsidir.

Müasir dövrümüz sivilizasiya dövrüdür. Bu dövrdə yüksək elmi səviyyə, dərin bilik tələb olunur. Elm, texnologiya əsrdir. Kəşf edilən elmi -texnoloji yeniliklər insan taleyini həll edir, onun müqədaratını təyin edir yaxud inkişafını sürətləndirir, rahatlığını təmin edir. Onun üçün də müasir gənclərimizin təhsilə yiyələnmələri vacib şərtlərdəndir. Təhsilin bünövrəsi məktəbdə qoyulur, bu fikri Ulu öndərimiz Heydər Əliyev belə xarakterizə edirdi:

"Şəxsən mənim müəllimə böyük hörmətim olubdur.İndiyə qədər həyatımda keçdiyim yol, mənim biliyim, elmim-hamısı orta məktəbdə aldığım təhsillə bağlıdır. Mən bu gün müəllimim qarşısında baş əyirəm, müəllimə hörmət və ehtiramımı bildirirəm."Bu gün hər birimiz aldığımız elm, savada görə müəllimə borcluyuq. Elmli, savadlı gəncliyimizin olması üçün hər bir şagird çalışmalıdır ki, müəllimlərinin onlara tədris etdiyi bütün fənnləri fərq qoymadan mənimsəyib, istedadlı tərəflərini zamanında dəyərləndirib arxasınca getsin. Müəllimlər isə işinə, peşəsinə vicdanla yanaşıb tədrisini keyfiyyətli icra etsin, bildiyini öyrətməkdən yayınmasın. Çalışqan şagirdləri hər zaman qiymətləndirib üzə çıxartsın, dəyərləndirsin. Təhsil jurnalı olaraq fəaliyyət müddəti boyunca o çalışqan və istedadlı şagirdləri tanıtmaq amalı ilə xidmətlərindəyik ki, bu yazı da haqqında da bəhs edəcəyimiz belə çalışqan şagirdlərimizdən biri də Dənizdir.

Rüstəmova Dəniz Nüsrət qızı 23 avqust 2009-cu ildə Bakı şəhərində dünyaya göz açmışdır. O, 2015 ci ildə 42 saylı Ağdam məktəbinin 1- ci sinfinə getmişdir. Hal- hazırda o, həmin məktəbin 4-cü sinifində oxuyur. Dərslərində fəal olan və yaxşı oxuyan balaca qızımız sinif əlaçısıdır. O, bir çox rəsm sərgilərində iştirak edərək maraqlı əl işlərini, rəsmlərini nümayiş etdirib. Əl qabiliyyəti gözəl olan bu balaca balamız gələcəkdə rəssam olmaq arzusundadı. Yəni bu istedadını inkişaf etdirərək arxasınca getmək istəyindədir. Amma buna baxmayaraq o müəllimlik sənətini də sevir. Onun üçün müəllim sənəti həm maraqlı, həm də ən şərəfli peşədir. Dənizin ən sevimli dərsləri riyaziyyat, ana-dili və həyat bilgisidir. Gülnar müəllim isə onun sevimli müəllimlərindən biridir. Boş vaxtlarında kitab oxumağı, rəsm çəkməyi və musiqiyə qulaq asmağı xoşlayır. Bu yaşda belə maraqlı və rəngarəng məşğuliyyətləri bir araya sığdırmağı bacaran şagird həqiqətən maraqlı və istedadlı olduğunu təsdiqləyir. O bununla mənəvi dünyasını daha erkən yaşlarında qidalandırır, mənəvi zənginlik əldə edir. Onun hər zaman arxasında olan ailəsi, valideynləri onunla qürur duymaqla yanaşı, həm də onun gələcəyini parlaq görmək istəyirlər.

Dənizin ailəsi 5 nəfərdən ibarətdir. Atası Rüstəmov Nüsrət Məhəmməd oğlu 2-si qrup Qarabağ əlilidir və satıcı işləyir. Anası Rüstəmova Nailə Raqub qızı kitabxanaçıdır.Qardaşı və bacısı Rüstəmov İbrahim və Rüstəmova Tahirə tələbədirlər. Onlar Dənizə hər zaman dəstəkçi və məsləhətdaşdırlar.

Redaksiya heyətimiz adından Dənizi təbrik edirik. Ona gələcək həyatında, seçəcəyi sənətdə və işlərində uğurlar arzulayırıq. Daim valideynlərinin, sevənlərinin fəxri, sevinci olsun.

# ZALOVA HÖKÜMƏXANIM








**"Axmaqlarla oturub - durmaqdansa, kitabla tənha oturmaq yaxşıdır"**

***(Qasım bəy Zakir)***

Yaxşı kitab çox qiymətli xəzinədir və insanın ilk dostu da kitabdır. Kitabsız ömrün heç bir mənası yoxdur. Çünki bilikli insan qiymətli sayılır. Bilik isə müxtəlif kitabları oxumaqla insanda formalaşan yüksək şəxsi keyfiyyətlərdəndir. Çünki O, çox oxuduğunun az olduğunu dərk edir və insan nə qədər oxuyub öyrənərsə yenə öyrənə biləcəklərin yanında az bir qism təşkil edər. İstedadı və qabiliyyəti olanlar elmlə inkişaf edib ali mərtəbəyə çatırlar və müəyyən kəşflərə nail olurlar. Bu gün elm tarixində öz kəşfləri tarixə imza atan tarixi simalar da buna sübutdur. İnsan biliyi ilə, öyrənməklə elmin zirvəsinə yüksəlir. Biliyi artdıqca da insanın ağlı da parlayıb hikmətli olur. Bir sözlə, elm sənin nurundur və o sənin gələcəyinə işıq saçır. Elə müsahibimiz Hökümәxanım də bizimlə eyni fikirdədir. Odur ki, jurnalımızın bu yazısının qəhrəmanı olaraq onu oxucularına təqdim edirik.

Zalova Hökümәxanım Əşrəf qızı 2009-cu ilin noyabr ayının 8-də gözəl bir payız günündə Bakı şəhərində ziyalı ailəsində dünyaya gəlib. 2016-cı ildə Biləcəri qəsəbəsindəki 266 saylı tam orta məktəbə yollanıb. 2018-ci tədris ilindən isə 297 saylı tam orta məktəbdə oxumaqla orta təhsilinə davam edib. İlk müəllimi Şəlalə İsmayılova, 3-cü sinifdən etibarən isə Aslanova Mətanət müəllim olub.

Hökümə haqında ətraflı məlumat alarkən müsahibimiz anası oldu. O övladı haqqında suallarımızı cavablandırdı. Məlum oldu ki, Hökümәxanımın valideynləri işlədiyindən O, dərsləri və hazırlıqları ilə özü məşğul olur. Dərslərini özü təkbaşına yerinə yetirir. Hələ 1-ci sinifdən etibarən dərsləri ilə müstəqil məşğul olan savadlı və bacarıqlı qızımız daim yüksək qiymətlər almağa nail olub. Adətən müəllimlər ən yaxşı oxuyan, məsuliyyətli və fəal şagirdlərini çox istəyirlər. Elə Hökümәxanımın da təlim-tərbiyyəsi və dərsə olan münasibəti çox yaxşı olduğu üçün müəllimlərinin sevgisini, rəğbətini qazana bilib, hətta əlaçı olduğu üçün oxuduğu məktəbin rəhbərliyi tərəfindən "Fəxri Fərman" və "Diplom"la təltif olunub. Hökümәxanım riyaziyyat elminə daha çox maraq göstərir. O fənnə dair testləri çox asanlıqla yerinə yetirir və bu testlərin həlli ona xüsusi zövq verir. Çünki riyaziyyat elmlərin şahıdır və onu mənimsəyən baş həyatda çox uğurlara sahiblənə bilər. Onun əcnəbi dillərə olan münasibəti də yüksəkdir. Ona görə də rus dilinə həvəsi olduğu üçün bu dili də öyrənməyə çalışır. Gələcəkdə isə peşəkar və bacarıqlı həkim olmaq istəyir.

İstedadlı qəhrəmanımız həmçinin Uşaq Gənclər Gimnastika Məktəbində təhsil alır. O, bir neçə dəfə turnirlərdəki çıxışları ilə müəyyən uğur mərhələlərini qazana bilib. O, 24 dekabr 2014-cü ildə "Tasnifat yarışın"da tamplinq balacalar arasında II yeri tutduğuna görə "Diplomla" və medalla təltif olunub.

Bu ağıllı, mehriban qızı bütün qohumlar, doğmalar çox sevir. Amma o ən çox ailəsi, xüsusilə atası istəyir. Hökümәxanım atasının ürəyində özünə xüsusi yer tutub. Hər axşam atası işdən gələndə o, qucağına yüyürüb boynuna sarılır. Atası balaca qızı ilə qürur duyur. Hökümәxanım da atasını lap çox sevir, hər zaman atasının etimadını doğrultmağa çalışır.

Valideynləri işlədiyi üçün Hökümə və qardaşı Əlinin qayğısına nənəsi Esmira xanım qalır. Buna görə də Hökümə jurnalımızın vasitəsi ilə zəhmətkeş və şirin Esmira və Yetər adlı hər iki nənələrinə təşəkkürünü bildirdi. Və hər zaman çalışaraq onların sevimlisi kimi qalacağına söz verdi.

Bu mehriban və qayğıkeş qız heyvanları da çox sevir. Ən çox sevdiyi ev heyvanı it və pişikdir. Hətta onun özünün sevimli iti də var. Saxladığı itinin adı Volfdur. İtinə qayğı göstərir və bilir ki, it insanın ən vəfalı dostlarından biridir.

Ailəsi 5 nəfərdən ibarətdir. Nənəsi Yetər xanım, evdar xanımdır. Atası Zalov Əşrəf şəxsi bizneslə məşğul olur. Anası Zalova İlahə, bankda mütəxəssis olaraq işləyir. Qardaşı Zalov Əli isə 7-ci sinifdə oxuyur.

Bu günün gerçək bir universiteti, bir kitabxanadır. Biz də jurnalımızın kollektivi adından Hökümәxanıma dərslərində uğurlar diləyir və gələcək həyatında böyük başarılar, nailiyyətlər arzulayırıq. kitablardan ayrı düşmədən sehrli və xoşbəxt bir ömür yaşamına qismət olsun. Həyatda bütün arzularına çataraq müəllimlərinin və ailəsinin daim sevinci, fəxarəti ol.



# Natəvan Babaverdiyeva







**"İnsanlar təhsil üçün yox, təhsil insanlar üçündür və o, insanların konkret ehtiyaclarına uyğunlaşdırılmalıdır"**

***(Əbu Turxan)***

Cavan qalan həmişə cəmiyyət olur, qocalan isə elm olur. Əlbəttə bu fikir hansısa fiziki, cismani qocalmaq mənasında, yox olmaq mənasında işlədilir. Belə ki, elm həmişə araşdırma sahəsi olub müəyyən alim və tədqiqatçıların apardığı uzun illərin araşdırması nəticəsində sübut edərək üzə çıxartdığı məlum həqiqətlər toplumudur. Bu məlum həqiqətlər qocalaraq bir nəsildən, yeni nəsilllərə, əsrdən - əsrlərə yol alaraq ötüb keçir və qocalır. Ancaq qocalan elmin fonunda hər zaman yenilənən isə cəmiyyət olur ki, əvvəlki nəsillər, köhnə nəsillərin onlara təhvil verdiyi, zamanın onlara diqtə etdiyi dövrün üstünlükləri fonunda və elmin inkişafı sayəsində yaşayaraq yeni nəsilə keçid alır. Səbəbsiz yerə İsaak Nyuton kimi elm fədaisi deməyib ki, əgər mən başqalarından daha uzaqları görə bilmişəmsə, onda bu, yalnız nəhənglərin çiyinlərində durduğuma görə mümkün olmuşdur. Yəni elm birdən-birə peyda olub, asanlıqla əldə olunan faktlar sahəsində mümkün olmayıb, onun üçün kamil və savadlı yetişdirilmiş insan beyini lazımdır ki, gerçək təbiət qanunuyğunluqlarına uyğun həmin faktları dəqiqləşdirib üzə çıxartsın, onları elmi, dəqiq üsul və analizlər, tədqiqat araşdırmaları ilə elm dünyasına məlum etsin, davamı üzərində baza bilgisini formalaşdırsın Bunun üçün hazırda dünyada böyük elmi inqilab dövrü yaşanır. Dünyanın inkişaf etmiş ölkələri öz elminin sayəsində bugünki inkişaf modelinə nail olublar, yüksək təhsil və insan kapitalı sayəsində elmi, sənayesi, iqtisadiyyatı özünün ən üst inkişaf modelinə çata biliblər və hələ də bu inkişaf yüksək sürətlə davam etməkdədir. Hələ texnoloji yeniliklərin dayanmadan ən yeni kəşflərini görməkdə şahid olan nəsilik ki, həm də bu texnoloji inqilabi yeniliklər insan həyatının bütün sferalarını rahatlıqla təmin edirlər. Çox istərdik ki, bizim ölkəmiz də elmi və texnoloji inkişafın inkişaf etdiyi ölkələrdən biri olsun, onun üçün bizə ilk növbədə elmli, bilikli yüksək təhsilli ixtisaslı kadrlar və yenilənən islahatlar lazımdır. Bu istiqamətdə isə ən böyük yük və məsuliyyət orta məktəblərdə təhsil alan şagirdlərimizin öhdəliyinə düşür. Jurnalımızın qayəsi də buna xidmət edir ki, savadlı və bacarıqlı, gələcəyi parlaq görünən şagirdləri tapıb tanımaq və tanıtmaqdır. Əslində belə bir təşəbbüs onların özü üçün, gələcəyi üçün də böyük stimulvericidir. Onlar haqqında olanları yazmaq, jurnalda işıqlandırmaq onların gələcək həyatına bir tramplin ola bilər. Elə bu məqsədlə yola çıxdığımız jurnalın növbəti belə qəhrəmanlarından biri















Natəvan Babaverdiyeva Rauf qızıdır.

İstedadlı və bacarıqlı olan gözəl Natəvan çoxşaxəli istedada malikdir desək yanılmarıq. Onun qısa ancaq maraqlı tərcümeyi halına nəzər yetirsək onunla nəinki müəllimlərinin, eləcə də valideynlərinin ürəkdən qürur duymasına haqq verməş olarıq. Keçid alaq onun tərcümeyi halına.

Babaverdiyeva Natəvan Rauf qızı 2005-ci ildə mayın 9-da Bakı şəhərində Yasamal rayonunda zəhmətkeş, sadə bir ailədə doğulub, böyüyüb. 2011-ci ildən isə ilk təhsil həyatına atılan qədəmlərini 308 saylı məktəbin birinci sinfinə getməklə atıb. 5-ci sinifə qədər təhsilini həmin məktəbdə əla qiymətlərlə alıb. O, həmişə seçilən və fərqlənən şagirdlərdən olub ki, buna da Natəvan həmişə istedadı və savadı ilə nail olub. 6-cı sinifdən etibarən valideynləri onun məktəbini dəyişərək Natəvanı 1saylı Şuşa tam orta məktəbinə yazdırır. Hazırda həmin məktəbdə təshilini davam etdirən Natəvan 8b sinif şagirdidir. Yalnız orta təhsil dərsləri ilə qane olmayan Natəvan mənəvi dünyamızın qidası olan musiqi bilgisini də dərinləşdirmək və fərqli istedadı tərəflərini üzə çıxartmaq naminə musiqi təhsili də alır. O, Qala dərəsi uşaq musiqi məktəbində fortepiano ixtisası üzrə 3-cu sinif şagirdidir. Orta məktəbdə bütün dərslərini yaxşı oxumağa çalışan və bunun öhdəsindən gəlməyi bacaran Natəvanın ən sevdiyi fənlər riyaziyyat və tarixdir. Çünki onun dəqiq elmlərə, ölkə və dünya tarixinə marağı böyükdür. Orta məktəbdə ən çox sevdiyi müəllimləri Türkan Əsədova, Qurbanova Gülnar, Bahar və Elmira adlı müəllimləridir. Məmmədova Xatirə, Rəsulova Arzu isə onun musiqi məktəbindən sevərək əziyyətini dəyərləndirdiyi müəllimləridir. Dərslərindən əlavə özünü püxtələşdirmək, gələcəyinə daha əmin əllərdə addımlamaq naminə ingilis dili kurslarına gedir və əlavə dil öyrənir. Digər tərəfdən maraqlı, qeyri adi əl işlərini nəzərə alaraq deyə bilərəm ki, Natəvan həm də rəsm çəkməkdə fitri istedada malikdir. O, rəsm dərnəyinə getməklə fırçası ilə al-əlvan boyalarda möcüzəvi tablolar, əsərlər yaradır. Çəkdiyi rəsmlərə baxarkən onun yaşının az olmasına baxmayaraq çox yaradıcı ruha malik olduğunu şahid oluruq. Elə boş vaxtlarında da sevimli işlərlə məşğul olur. Rəsm çəkir, kitab mütaliə edir və fortepianoda ifa edir. Ona hər zaman maddi və mənəvi dəstək olan ailəsi onunla fəxr edir, onun gələcəyini parlaq görmək istəyir. Atası Babaverdiyeva Rauf Sətdar oğlu 1972-ci ildə Laçın rayonunun Minkəndində doğulub. Fərdi fermer təsərrüfatı ilə məşğuldur.







Anası Məmmədova Elnarə İbrahim qızı 1978-ci ildə Xaçmaz rayonunda anadan olub. Evdar xanımdır. Əl işləri ilə məşğul olur ki, qızına da bu istedad məhz anasından keçib. Yəni anası da yaradıcı xanımdır. İki qardaşı var ki, böyüyü Rəvan Babaverdiyev 1 saylı Şuşa tam orta məktəbin 7b sinif şagirdidir. Onun idmanın karate sahəsində bir çox uğur və nailiyyətləri var ki, bunlardan ən layiqlisi bu yaxınlarda İran İslam respublikasında yaşanıb. Karate üzrə keçirilən beynəlxalq yarışda 16-ölkə üzrə 2-ci yeri tutmaqla ölkəsini layiqincə təmsil edib. Kiçik qardaşı Sətdar Babaverdiyev Rauf oğlu isə eyni məktəbin 2a sinif şagirdidir. O da bacısı kimi əlaçıdır və olimpiadalarda iştirak edərək uğurları ilə ailəsini sevindirir. Öz tərbiyəsi ilə onlara nümunə olan Natəvan həm valideynlərini, həm qardaşlarını sevərək uğurları ilə sevindirmək istəyir. Onun gələcək peşəsi ilə bağlı seçimi isə hüquqşünaslıqdır. O, istəyir ki, gələcəyin peşəkar və savadlı, cəmiyyətə faydalı peşə insanı olsun. Hər üç övladın təhsili və uğurlarını nəzarət altında saxlayan məktəb direktoru Qurbanova Gülnar Bayram qızı da çalışır ki, məktəbdə aktiv və bacarıqlı şagirdlərin sayı çox olsun və oxuyan uşaqların zəhməti, əziyyəti hədər getməsin.



Elə redaksiyamız adından da biz də Natəvana və onun qardaşlarına uğurlar arzu edərək gələcək həyatlarının parlaq və faydalı olmasını diləyirik. Qoy hər biri əldə edib edəcəkləri uğur və yüksək sədaları ilə müəllimlərinin, valideynlərinin fəxri, sevinci olsun.







niyyətləri var. O uşağın ən böyük arzusu hərbiçi olmaqdır. Hətta təhsilini xaricdə davam etdirmək və İngiltərəyə, Londona gedib oraları gəzmək də onun indidən xəyalını qurduğu arzulardandır. Qeyir adi düşüncə və yenilikçi bir ruha malikdir Turqay. Texnoloji yenilikləri tez mənimsəyir və onlardan öz bilgisini artırmaq üçün yararlanır. Onun ailəsi də onun bütün arzu və istəklərini dəstəkləyərək çalışır ki, ona hər tərəfdən valideyn kimi öz köməkliklərini etsinlər. Onunla bağlı valideyn kimi böyük gözlənti və ümid içərisindədirlər. Atası Nəzərov Turan Əhəd oğlu mərmər satışı ilə məşğul olan fərdi sahibkardı. Bu istiqamət üzrə çalışaraq ailəsini, tabeliyində olan işçilərini dolandırır. Anası Səfura Nəzərova Əsgər qızı isə evdar xanımdır. 5 yaşında Gülgəz Nəzərova adında bacısı və 3-cü sinifdə oxuyan Pənah Nəzərov adında qardaşı var. Turqay onlardan böyük olmaqla çalışır ki, özünü onlara nümunəvi övlad, şagird kimi tanıtsın ki, bacı və qardaşı da ondan nümunə götürsün.

Biz də redaksiyamız adından Turqaya və onun ailəsinə uğurlar, övlad uğurları, bol şans və parlaq həyat arzulayırıq. Arzu edirik ki, onun bütün arzuları çin olaraq müəllim və valideynlərinin sevinci və fəxrinə səbəb olar.




AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ
Laçın rayonu 28 nömrəli
tam orta məktəb

FƏRQLƏNMƏ

Məktəbin 4b sinif şagirdi

4-cü sinfi bitirdiyinə
görə təltif olunur.

Məktəbin direktoru: Nofəl İsmayılov
Sinif rəhbəri: Vəfa Qarayeva

2018
iyun

# Turqay Nəzərov





**"İnsanlar təhsil üçün yox, təhsil insanlar üçündür və o, insanların konkret ehtiyaclarına uyğunlaşdırılmalıdır"**

***(Əbu Turxan)***

Hər hansı bir elmin açarı sual işarəsidir. İnsan övladı bir ömür öyrənib yaşasa belə yenə öyrəndiyi öyrənə biləcəyi və əldə edəcəyi biliklər fonunda kölgədə qalır. Ona görə də daim insan oxumalı, öyrənməli və öyrətməlidir ki, bu proseslər paralel şəkildə getsin. Ləzzətlə yemədiyin yemək usandırıcı olmadığı kimi həvəslə məşğul olmadığın elm də hafizəni korlayır. O udduğunu mənimsəmək iqtidarında olmur. Niyyət elm ilə əməl arasında bir vasitədir. Əgər elm-bilik yolunda müəyyən niyyət və məqsədlə addımlayarsansa onda əməli faydan ola bilər.

"Bilik gücdür" deyiblər dahilər.Elə bu atalar sözündən yola çıxaraq demək olar ki, biliksiz insan bar verməyən ağaca bənzər. Nursuz göz kimidir elmsiz ürək , nadan insanlıqdan uzaqdır gerçək misalı da bu arada yerinə düşər.

Kitab oxuyanlar televiziyaya baxanları həmişə idarə edəcəklər. Əslində yüksək təhsilli insanların, ixtisasını yüksək səviyyədə bilənlərin əksəriyyəti həyatda düzgün zaman və anda öz yerini tutur. Bunun üçün də ölkədə ilk növbədə yüksək təhsilə və sistemli şəkildə təhsil siyasətinə üstünlük verilməlidir ki, alınan və verilən təhsil məzunun sonrakı həyatında ona yararlı olsun. Hələ ki, ölkənin təhsil sistemində müəyyən çətinliklər, çatışmazlıqlarla yanaşı gənclərin yüksək təhsilə doğru yol alması və marağında olması təqdirəlayiq haldır. Ən yeni nəsilə, şagirdlərə də bu bir örnəkdir. Elmi, təhsili öz həyatında yüksək tutan qabaqcıl şagirdlərdən biri ilə bu yazıda tanış olmaq olar. Söhbət Turqay Nəzərovdan gedir. Onun qısa ancaq maraqlı tərcüməyi halı ilə jurnal oxucularını tanış edək.

Turqay Nəzərov Turan oğlu 2007-ci ilin noyabrın 16-da Ağcabədi rayonunda doğulub. O, rayon ərazisində dünyaya göz açsa da ancaq Bakı şəhərində yaşayır və təhsil alır. Təhsil həyatına isə 2014-cü ilin sentyabrından başlayıb. Həmin ilin tədris ilində Laçın rayonun 28 saylı tam orta məktəbin 5b sinif şagirdidir. Məktəbdə, sinifdə öz savad və bacarığı ilə seçilən Turqay dərslərinə məsuliyyətlə yanaşmaqla yanaşı digər istedadlı tərəfləri ilə də seçilir. Onun ən çox sevdiyi fənn ingilis dili, ən sevdiyi müəllim isə Gözəl müəllimdir. Uğur və nailiyyətlərinə görə ötən il 4-cü sinifi uğurla bitirdiyinə görə "Fərqlənmə"mükafatı ilə dəyərləndirilib. Hazırda da bütün dərslərini əla qiymətlərlə oxuyan Turqayın maraq dairəsində rəsm çəkmək və idmanla məşğul olmaq da var. Hətta anası onun haqqında əlavə etdi ki, boş vaxtlarında kitab oxumaqla yanaşı gələcəklə bağlı çox müsbət arzuları və böyük



# Salmanlı Esnad





**Kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyyatla nəsillərdən-nəsillərə yetirən fikir gəmisidir.**

***(F.Bekon)***

Kitabsız ömür boşa verilmiş, həyatı yaşamamış və onu dərk etmədən yola verilmiş ömürdür ki, nə insanın özünə, nə də məxsus olduğu cəmiyyətə xeyiri, faydası var. Cənnətə gedən yollar çoxdur. Onlardan ən qısası elm və təhsildən keçənidir deyib peyğəmbərimiz.Yəni insan övladı beşikdən qəbr evinə qədər oxumalı və öyrənməlidir ki, ömrü hədər getməsin. Xüsusilə indiki 21-ci əsr bunu tələb edir və elmi inkişaf fonunda insan övladının zamanın tələbinə uyğun olması üçün müasir elmi və texnoloji yeniliklərdən yararlanmaqla inkişaf etməsi qaçılmazdır. Biz elmi-texniki tərəqqi əsrində yaşayırıq. Bu əsr elə bir əsrdir ki, bu zamanda cəmiyyətin inkişafı birbaşa olaraq bilik və elmdən asılıdır.

Bilik bir gücdür. Elm öyrənmək zehni zəhmət olduğu qədər faydalıdır.

J. J. Russo demişdir. "Döyüşdə silah lazım olduğu kimi, həyatda da bilik lazımdır". Bu dəyərli fikirləri isə zamanında elm-təhsil yoluna qədəm basmış bütün şagirdlərə öyrətmək və təlqin etmək lazımdır ki, onları zamanı hədərə verməyib doğru-düzgün yolu özləri üçün qət etsinlər. Elə təhsili təbliğ etmək amacı ilə yola çıxan jurnalımızın da əsas xidməti fəaliyyəti budur ki, istedadlı və xüsusi bacarıq və qabiliyyətə malik şagirdləri tapıb üzə çıxartsın və onları işıqlandırmaqla gələcək həyat yoluna bir stimulverici motivasiya versinlər. Salmanlı Esnad Zaur qızı da belə bacarıqlı və istedadlı şagirdlərdəndir ki, növbəti yazımızda onun qısa ancaq maraqlı tərcümeyi halından bəhs edəcəyik.

Salmanlı Esnad Zaur qızı 8 noyabr 2010-cu ildə Bakı şəhəri Biləcəri qəsəbəsində dünyaya göz açıb. Esnad 2017-ci ilin tədris ilindən etibarən 297 saylı tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. O, hal-hazırda həmin məktəbin 2-ci sinif şagirdidir. Baxmayaraq iki ildir ki, təhsil alır, ancaq əlaçı və nümunəvi şagird kimi özünü tanıtmağı bacarıb. Esnad hətta bağça vaxtlarından həmyaşıdlarından seçilməyi bacarıb müəllimlərin hörmətini qazanıb. İti zenhi və yaradıcılıq qabiliyyəti onu bir addım qabaqda getməsinə səbəb olub. O, bütün dərslərini sevərək oxuyur və onları dərk edir. Onun ən çox sevərək mənimsədiyi fənn riyaziyyat, ən çox sevgisini və rəğbətini qazanan müəllimi isə sinif rəhbəri olan Nərgiz müəllimdir. Anası ilə Esnad haqqında həmsöhbət olarkən məlum oldu ki, bu balaca istedadlı balanın maraqlı rəsm çəkmək qabiliyyəti var. Elə dərslərindən vaxt tapan kimi, yəni asudə zamanlarında kitab oxuyur, maraqlı oyunlar oynayır və gözəl, qeyri-adi rəsmlər çəkir. Düzəltdiyi maraqlı əl işləri əmək təlimi müəllimi tərəfindən yüksək qiymətləndirilərək sinif guşəsində sərgilənir. Əsnad gələcəkdə həkim olmaq istəsə də anası Ülkər xanım deyir ki, qızının sahib olduğu fitri istedaddan dolayı onun memar sənətini seçməsini istəyərdi. Çünki həm istedad özünü Esnadda tapar, həm Esnad cəmiyyətdə öz layiqli yerini tutar. Amma bu gələcəyin qisməti, taleyin işidir. Ailəsi, valideynləri ona layiqli vətən övladı, cəmiyyətdə öz yerini tutmağa bacaran vətəndaş kimi böyüməyi arzulayır. Ən əsası can sağlığı və uğurlu tale onun qisməti olsun deyə arzu edirlər.

Atası Salmanlı Zaur Sahib oğlu 30 avqust 1978-ci ildə anadan olub. Ali təhsilli, İqtisad Universitetinin məzunudur.

Anası Salmanlı Ülkər Vahid qızı 2 avqust 1990-cı ildə dünyaya göz açıb, evdar xanımdır, orta təhsillidir.

2013 cü il 15 may doğumlu Salmanlı Əli və 2017-ci il 7 fevral doğumlu Salmanlı Toğrul adlarında iki qardaşı var.

Jurnalımızın heyyəti adından biz də Esnada böyük həyat və sənət uğurları, can sağlığı və ailəsi ilə birgə xoş günlər arzulayırıq. Qoy öyrəndiyi hər bilik onun ömür yoluna yaşıl işıq yandırsın. Arzuları çin, diləkləri gerçək olsun. Ona baxıb müəllim və valideynləri daim qürur hissi keçirib fəxr etsinlər.

# EYYUB VƏ RƏŞİD QARDAŞLARININ TƏHSİLDƏKİ UĞURLARI









**"Kitablar özünüzə və başqalarına hörmət etməyi öyrədəcək, ürəyi və ağlı, dünya və insanlıq sevgisi ilə dolduracaq."**

***(Maksim Qorki)***

Elm zülmətdən işıqlığa və səadət nuruna yetişməkdə bəlkə də yeganə qüvvədir. Cəhalət və savadsızlığın hakim olduğu bir cəmiyyət sonunda süquta məhkumdur. Lakin elmin nailiyyətləri nəticəsində bəşər həyatı daha da gözəlləşməyə doğru irəliləməkdədir. Hər bir cəmiyyətin həyat səviyyəsinin yüksəlişi, tərəqqisi həmin toplumda elmin inkişafından, elmə marağın hansı səviyyədə olmasından və daha bir çox elmlə bağlı ünsürlərin həmin cəmiyyətdə olub-olmamasından asılıdır. Bir sözlə, elmin insan həyatının çiçəklənməsində müstəsna rolu vardır. Elm elə ailədən formalaşır desək yanılmarıq. Elmin yoluna istiqamətinə yol tapmağı ailədən, valideynlərindən öyrənən qardaşlarla da sizi tanış etməyi özümüzə borc bildik. Onlar bu yola yenicə qədəm qoysalar da gələcək naminə məqsədli və inamlıdırlar.

Ziyalı ailəsində böyüyən bu qardaşlar əslən Qarabağın ən gözəl guşələrindən biri olan Laçın rayonundandırlar. Məlum məsələdir ki, Laçınımız 27 ildir ki, mənfur düşmən işğalında qalıb. Bu səbəbdən də Eyyub və Rəşidin ailəsi də məcburi köçkün həyatı yaşamaq məcburiyyətindədirlər. Müsahibəmiz zamanı bu ailənin sözün həqiqi mənasında necə mədəni, savadlı, qonaqpərvər olduqlarının şahidi olduq.

Dünyamalı Eyyub Xaliq oğlu 22 sentyabr 2008-ci ildə Bakı şəhərində anadan olub. 2014-cü ildə Pirşağı qəsəbəsində yerləşən Zəngilan rayon 32 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub. İlk dəfə ona "Ana", "Vətən" kəlməsini öyrədən məhz vətənpərvər valideynləri olub. İbtidai sinifi daim əla qiymətlərlə oxuyan Eyyub yaxşı oxuduğuna görə valideynlərinə və müəlliminə borclu olduğunu bildirdi. Oxuduğu illər ərizində daim fəal olan Eyyub 2016-2017-ci tədris ilində III sinfi əla qiymətlərlə bitirdiyi üçün "Fəxri Fərmanla" və 2017-2018-ci tədris ilində (4-cü sinifdə) göstərdiyi əla təlim göstəricilərinə, yüksək mədəniyyət və müvəffəqiyyətinə, çalışqanlığına, nümunəvi davranışına görə yenə də "Fəxri Fərman"la, 2018-ci tədris ilində isə Müstəqillik gününə həsr olunmuş şeir müsabiqəsində uğurlu iştirakına əsasən "Tərifnamə" ilə təltif olunub. 5-ci sinifdə qazandığı uğurlara görə sinif rəhbəri Yeganə müəlliməyə özün borclu sayır. Qısa (3 ay) müddətində Eyyub yaxşı oxumağı və təlim-tərbiyyəsi ilə Yeganə müəlliminin də ürəyində özünə yer tapıb. Bu tədris ilinin 3 ayını 32 nömrəli tam orta məktəbdə oxuyan Eyyub elə həmin ilin dekabr ayından etibarən Laçın rayon 29 saylı məktəbində təhsilini davam etdirir. Burada isə sinif rəhbəri Südabə müəllimdir. Eyyub bu məktəbdə də müəllimlərinin rəğbətini qazanıb. Bütün fənləri çox yaxşı oxuyur. Riyaziyyat çox sevir və iti zəkası hesabına yaxşı riyazi hesablamalar apara bilir. Çalışır ki, gələcəkdə valideynləri kimi savadlı olsun, onların övladları bağlı arzu və istəklərini doğrultsun.

Eyyubdan sonra bu ailədə daha bir kamil uşaq böyüyür. Ailənin ikinci övladı Rəşid də qardaşından fərqlənmir. Onları bir-birindən fərqləndirən bir səbəb varsa o da aralarındakı 2 yaş fərqin olmasıdır.

Dünyamalı Rəşid Xaliq oğlu 22 mart 2010-cu ildə Bakı şəhərində dünyaya gəlib. 2016-cı ildə ilk dəfə məktəbə yollanıb. İlk müəllimi Səlminaz Kazımova olub. Rəşid də qardaşı kimi tərbiyyəli və dərslərinə çox məsuliyyətlə yanaşan olub. Rəşid hər zaman dərsə hazırlıqlı gəldiyi üçün Səlminaz müəllimənin sevimli şagirdlərindən biri idi. Oxuduğu illər ərzində özünü nümunəvi və çalışqan aparan Rəşid sinif yoldaşları arasında özünə hörmət qazana bilmişdir. Dərslərində göstərdiyi yüksək göstərici nəticəsində və məktəbin tədbirlərində gözəl şeir demə bacarığına görə Rəşid də məktəb rəhbərliyi tərəfindən əla qiymətləndirilərək "Diplom"la təltif olunub.Yaşayış ünvanlarını dəyişmələri səbəbindən o, 3-cü sinfi Laçın rayon 29 nömrəli tam orta məktəbində davam etdirməli olub. Burada onun müəllimi İlahə Məmmədovadır. Qeyd edək ki, Rəşid buradada da müəllimi və sinif yoldaşları tərəfindən sevilib. Rəşid keçmiş müəllimi Səlminaz müəllimi unutmasa da İlahə müəlliməyə də tez isinişib. Çünki, İlahə müəllim də çox mehriban və şagirdlərinə bir ana qayğısı göstərə bilən bir pedaqoqdur. Rəşid əvvəllər bir qədər çəkinirdi. Amma ondakı oxumağa olan maraq bu çəkinməyi unutdurdu. Birinci rübün summativlərindən yüksək qiymətlər nəticəsində əlaçı şagird olaraq davam edir. Rəşid özünə söz verib ki, gələcəkdə seçəcəyi peşəsinin ən savadlı mütəxəssislərindən biri kimi yetişəcək.

Ziyalı ailədə iki oğul övladı böyüyür. Eyyub və Rəşid.

Ataları Xaliq Rəşidoğlu mətbuat işçisidir. Xaliq müəllim "İnterPost.info" informasiya portalının baş redaktorudur.

Anaları Abdullayeva İlkanə isə kitabxanaçıdır.

Xatırladaq ki, gələcəkdə Eyyub həkim, Rəşid isə pilot olmaq arzusundadılar.

Jurnalımızın kollektivi adından bu ziyalı ailənin cüt balalarına can sağlığı, uzun ömür arzulayırıq. Əminik ki, valideynlərinə layiq bir övlad olub gələcəkdə ölkəmizi, vətənimizi dünyaya layiqincə təmsil edəcəklər. Eyyub və Rəşidə dərslərində uğurlar, gələcək həyatlarında böyük nailiyyətlər diləyirik!



ÇAĞDAŞ

# TƏHSİL

Xüsusi buraxılış MART 2019-cu il (16)








2013-cü ildən nəşr olunan Təhsil Yenilikləri qəzeti və eyni adda xüsusi buraxılış jurnalı əsasən dövlət və dövlətçiliyi təbliğ edir. Öz saylarında daha çox təhsil, təhsildəki yeniliklər haqqında məlumat verir.

Xüsusi buraxılış olan jurnalda istənilən şəxslər öz yazılar ilə çıxış edə bilər. Belə ki, qabaqcıl ziyalılar, müəllimlər, həkimlər, tələbələr, şagirdlər və qeyri-ixtisasın sahibləri öz yazılarını jurnalda çap etdirə bilərlər. Eləcə də 500-dən yuxarı bal toplayan məzunlar, əlaçılar, idmançılar, maraqlı əl işləri olan gənclər, səs qabiliyyəti olan və şeir yazmaq və demək qabiliyyəti olan şagirdlər də jurnala müraciət edə bilərlər.

Onu da qeyd edək ki, jurnal şəhid övladlarına, fiziki əqli cəhətdən zəif olan şagirdlərə, o cümlədən hər iki valideynini itirən şagirdlərə pulsuzdur.

Əziz oxucular! Əgər sizlər də jurnalda məqalə, elan, təbrik və reklam vermək istəyirsinizsə aşağıdakı telefonlarla əlaqə saxlaya bilərsiniz:
Telefon nömrələri:
(070) 077 988 82 83     077 632 22 86 WhatsApp     012 408 91 92

Mail: tehsil_news@mail. ru
Facebook: Tehsil Yenilikleri     İnstagram: tehsil_yenilikleri   Youtube: Təhsil Yenilikləri








Təsisçi:
Vüsal Kəlbəcərli

Baş redaktor:
Ülvi Musayev

Redaksiya heyyəti:
Cavid Qurbanov
Qənbər Qurbanov

"Çağdaş Təhsil" qəzetinin
Xüsusi buraxılış

Ünvan: Azərbaycan Respublikası
Bakı şəhəri, Mətbuat prospekti
529-cu məhəllə
"Azərbaycan nəşriyyatı"
2-ci mərtəbə

Jurnal Redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib, çap olunmuşdur.

Tiraj - 500

Tel: 077-632-22-92
050-770-21-97
055-334-99-86
012-408-91-92
077-632-22-86
050-877-71-86